08_27 IYUl-QARA.qxd 3/1/2024 3:48 PM Page 1

# UNİKAL

№08 (2190) 1 mart 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru

# Sülh danışıqlarının "Berlin raundu": Vəziyyət gərginləşir, yoxsa düyün açılır...



Səh.9



## "Elmə ayrılan maliyyə çox azdır" - Nazir

*"Azərbaycan elmini birləşdirib inteqrasiyasına nail olmalıyıq".*

*"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev deyib.*

*"İstəyiriksə ki, milli elmimiz dünyada görünsün, bu birlik, əməkdaşlıq mütləqdir. Fərdi elm olmur, elm birlik fonunda olur", - o deyib.*

*Nazir Azərbaycan elminə ayrılan maliyyənin az olduğunu bildirib: "Bu o qədər uzun müddət belə olub ki, birdən-birə maliyyə artırılsa, nəticə əldə edilməyəcək".*

Səh.8

## "Fransa bölgədə yenidən müharibəni qızışdırmaq istəyir"



*Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a müsahibə verib. O, Berlində Azərbaycan və Ermənistan XİN rəhbərlərinin keçirdiyi görüşün əhəmiyyətindən, sülh müqaviləsinin nə zaman imzalana biləcəyindən və sülh danışıqlarının getdiyi zamanda Fransanın Ermənistanı silahlandırmasından danışıb.*

Səh.4

## Vüqar Qurbanovun təyin etdiyi kadrlarla bağlı xəyal qırıqlığı



*Hesablama Palatasının 2023-cü ilin İş planına əsasən Gəncə Şəhər Birləşmiş Xəstəxanasında həyata keçirdiyi audit nəticəsində nöqsanlar aşkar edilib. Məsələn, Gəncə Şəhər Birləşmiş Xəstəxanasının tabeliyində olan Z.Məmmədov adına xəstəxananın Vərəm şöbəsində stasionar şəraitdə müalicə alan...*

Səh.8

## "Ölkədə əsas problem məhkəmə ilə bağlıdır" - Fazil Mustafa



*"Elə məhkəmə qərarı olur ki, bunun icrası "2x2"dir, amma yubadılır"."Unikal" xəbər verir ki, bunu Milli Məclisin İnsan hüquqları komitəsinin bu gün keçirilən iclasında deputat Fazil Mustafa deyib. Onun sözlərinə görə, məhkəmənin dostu institutunun yaradılması təklifi məhkəmə qərarlarına da şamil edilsə...*

Səh.8

08_27 IYUI-QARA.qxd 3/1/2024 4:05 PM Page 2



# "Anladım ki, heç kimə inanmaq olmaz" - Gülay Zeynallı



***Müğənni Gülay Zeynallı açıqlaması ilə diqqət çəkib.***

Sənətçi "İncə səhər" proqramında yaşadıqlarından danışıb.

"Bəzi məsələlər var ki, gərək, onu yaşayasan, sonra biləsən. Yaşadığım şeylərdən sonra anladım ki, heç kimə inanmaq olmaz. Hər şey qədərində olmalıdır. Belə olanda daha gözəl olur. Hər insanın özünə uyğun dəyəri, hörməti olmalıdır. Artıq olanda sənin deyil".

Qeyd edək ki, Gülayın həyat yoldaşı, idmançı Kamil Zeynallı bir neçə gün əvvəl Rusiyada hava limanında saxlanılmışdı. Ermənistan Respublikası onu ölkənin Cinayət Məcəlləsinin 135 (İnsanlığa qarşı cinayətlər), 137 (Müharibə cinayətləri), 140 (Müharibə aparmaq üçün qadağan olunmuş üsullardan istifadə edən hərbi cinayətlər), 147 (Muzdlu cəlb etmək) və 149-cu (Təcavüz) maddələri ilə ittiham edib.

# "İzah edə bilmərəm ki, hansı əziyyətlə bağ tikdirmişəm" - Pərvin Abıyeva

***"Bağ evini yavaş-yavaş tikdirmişəm. Gedib böyük bir məbləğ verib hazır ev almamışam. Ona gücüm olmayıb. Əvvəlcə torpaq aldım. Sonra hissə-hissə evi tikdirdim".***



Axşam.az xəbər verir ki, bu sözləri aktrisa Pərvin Abıyeva "Xəbərin var" proqramında deyib. Sənətçi böyük bağ evi tikdirməsi ilə bağlı suallara cavab verib:

"O ev 2-3 il ərzində başa gəlib. Bunu afişa etmədim, görməmiş kimi demədim, qarğa məndə qoz var. Görməmişlikdir. Bəzi məşhurlarımız kimi birdən-birə demədim baxın, bağ almışam. Sevmirəm bunu, olanı var, olmayanı var. Başa sala bilmərəm bunu necə, hansı əziyyətlərlə etmişəm. Mənə qarşı aqressiya onsuz çoxdur, bunu bir az da artıra bilmərəm".

# Prokuror "Nikosayağı"ya 6 il həbs cəzası istədi

***"Nikosayağı" kimi tanınan bloger Nicat Şakirlinin cinayət işi üzrə məhkəmə istintaqı yekunlaşıb.***



"Unikal" report-a istinadən xəbər verir ki, bu barədə qərar Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Samir Əliyevin sədrliyi ilə keçirilən prosesdə elan edilib.

Prokuror Orxan Mehdiyev məhkəmədə təqsirləndirilən şəxsin 6 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, ötən ilin avqustunda N.Şakirli idarə etdiyi "Porsche" markalı avtomobillə yük maşınına (TIR) çırpılıb. Qəza nəticəsində avtomobildə olan blogerin dostu Ruslan Məmmədov vəfat edib. Nicat Şakirlinin sağ qolu dirsəkdən amputasiya olunub.



# "Kaş qızımı ora ərə verməzdim" - Mətanət İsgəndərli

***"Gərək qızımı uzağa ərə verməzdim. Çox çətindir. Hər gedəndə ayrılıqlar məni öldürür. Gələndə nə o mənə, nə mən ona ağlamağımı göstərirəm".***

Bu sözləri Əməkdar artist Mətanət İsgəndərli "Ay Zaur" proqramında deyib. Müğənni türkiyəli iş adamı ilə ailə quran qızı Ülkərdən danışıb. O bildirib ki, qızını əcnəbi vətəndaşa ərə verməyə peşman olub.

Qeyd edək ki, Ülkər ailə qurduqdan sonra Antalyada yaşayır. Onun bir övladı dünyaya gəlib.

# Dilarə aldığı evlilik təklifindən danışdı

***"Bəzən olur kişi işləyir, arada boşluq yaranır. Bu heç. Amma hərdən də heç çalışmır. İşləməyən kişidən qorxuram".***



Axşam.az xəbər verir ki, bu sözləri müğənni Dilarə Əliyeva "Mətbəxdə ağa" proqramında deyib. Sənətçi çalışmayan kişilərdən danışıb:

"O, məndən pul istəyəcək. Nə olacaq? Evi kim dolandıracaq? Gəlib mənim evimdə qalacaq. Mən də onu dolandıracağam. Nə yaxşı".

Aldığı evlilik təklifindən danışan Dilarə "6 ay bundan əvvəl evlilik təklifi almışam. Amma o, istədiyim insan olmalıdır. Çox ailə qurmaq istəyən var. Amma o, mənim istədiyim, sənətimi qəbul edən olmalıdır" sözlərini əlavə edib.

# Tərana Səmədova bəraət istəyir

***Tanınmış prodüser Tərana Səmədova və onunla birgə məhkum edilmiş Rasim Həsənov hökmdən narazıdırlar.***



"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, müttəhimlərin vəkilləri müvəkkilləri haqda ittihamedici hökmdən apellyasiya şikayəti veriblər.

Şikayət ərizəsində xanım prodüser və tanışının özlərini təqsirsiz hesab etdikləri qeyd edilərək, bəraət qərarı çıxarılması xahiş edilib. Şikayətlərə Bakı Apellyasiya Məhkəməsində baxılır.

Xatırladaq ki, Tərana Səmədova və Rasim Həsənov ötən ilin fevralında həbs olunub. Onlar birgə hədə-qorxu ilə tələb etməkdə ittiham ediliblər. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə T.Səmədova 6 il, R.Həsənov isə 7 il müddətə azadlıqdan məhrum edilib.

08_27 IYUI-QARA.qxd 3/1/2024 4:09 PM Page 3



## "Ölkədə əsas problem məhkəmə ilə bağlıdır" - Fazil Mustafa



***"Elə məhkəmə qərarı olur ki, bunun icrası "2x2"dir, amma yubadılır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İnsan hüquqları komitəsinin bu gün keçirilən iclasında deputat Fazil Mustafa deyib.

Onun sözlərinə görə, məhkəmənin dostu institutunun yaradılması təklifi məhkəmə qərarlarına da şamil edilsə, yaxşı olar: "Çünki bəzən elə məhkəmə qərarı olur ki, bunun icrası "2x2"dir. Misal olaraq, məhkəmə qərar qəbul edib, amma məhkəmə icraçısı bunu həll etməyə maraqlı deyil. Yüzlərlə belə fakt olub ki, biz zəng edib məcbur etmişik. Sənin nə marağın ola bilər?! Yaxud da qərarın icrasını təmin etmək qarşı tərəfin məsələni uzatması üçün müəyyən imkanları geniş olanda məhkəmə qərarının icrasına maneə törətmək vəziyyəti yaranır. Buna da hansısa formada Ombudsmanın müdaxilə etmək imkanı vacibdir. Çünki ölkədə əsas problem məhkəmə ilə bağlıdır. Məhkəmə qərarı icra olunmayan bir ölkədə heç nəyin ədalətli olmadığını müzakirə etməyə ehtiyac yoxdur. Odur ki, ilk növbədə bu məsələ həll olunmalıdır".

***Anar Kəlbiyev***

## "Elmə ayrılan maliyyə çox azdır" - Nazir



***"Azərbaycan elmini birləşdirib inteqrasiyasına nail olmalıyıq".***

"Unikal" xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev deyib.

"İstəyiriksə ki, milli elmimiz dünyada görünsün, bu birlik, əməkdaşlıq mütləqdir. Fərdi elm olmur, elm birlik fonunda olur", - o deyib.

Nazir Azərbaycan elminə ayrılan maliyyənin az olduğunu bildirib: "Bu o qədər uzun müddət belə olub ki, birdən-birə maliyyə artırılsa, nəticə əldə edilməyəcək".

## Azərbaycanda sabiq rəis həbs edildi



***Yevlax rayon qeydiyyat şöbəsinin sabiq vəzifəli şəxsinin qanunsuz əməlləri ifşa olunub***

"Unikal" xəbər verir ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Yevlax rayon qeydiyyat şöbəsinin sabiq rəisi Elşən Quliyevin qanunsuz hərəkətləri ilə bağlı keçirilmiş əməliyyat tədbiri nəticəsində cinayət işi başlanıb.

İstintaq zamanı Elşən Quliyevin qeyd edilən vəzifədə işləyərkən xidməti vəzifələrinin icrası ilə əlaqədar ayrı-ayrı şəxslərə ad və soyadı dəyişdirilməklə doğum haqqında yeni şəhadətnamənin verilməsi müqabilində ümumilikdə 4 min manat pul vəsaitini rüşvət qismində almasına, habelə həqiqi və ya güman edilən təsir imkanlarından istifadə edərək barəsində ibtidai istintaq aparılan təqsirləndirilən şəxsin digər dövlət qurumları tərəfindən ölkədən çıxışına qoyulmuş qadağanın götürülməsi müqabilində 8 min manat pul almaqla vəzifəli şəxsin qərarına qanunsuz təsir etməsinə əsaslı şübhələr müəyyən edilib.

İş üzrə toplanmış ilkin sübutlar əsasında Elşən Quliyev şübhəli şəxs qismində tutulub və ona Cinayət Məcəlləsinin 311.3.2 (rüşvət alma, təkrar törədildikdə) və 312-1.1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə - nüfuz alveri) maddələri ilə ittiham elan edilməklə, barəsində istintaq orqanının vəsatəti, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə ibtidai istintaq davam etdirilir.

# Vüqar Qurbanovun təyin etdiyi kadrlarla bağlı xəyal qırıqlığı

## Gəncə Şəhər Birləşmiş Xəstəxanasında çox sayda ciddi nöqsanlar üzə çıxdı

***Hesablama Palatasının 2023-cü ilin İş planına əsasən Gəncə Şəhər Birləşmiş Xəstəxanasında həyata keçirdiyi audit nəticəsində nöqsanlar aşkar edilib.***

Məsələn, Gəncə Şəhər Birləşmiş Xəstəxanasının tabeliyində olan Z.Məmmədov adına xəstəxananın Vərəm şöbəsində stasionar şəraitdə müalicə alan xəstələrin sayı çox göstərilib.

Palatadan verilən xəbərə görə, 2023-cü ilin 4 dekabr tarixində 33 nəfər xəstənin stasionar şəraitdə müalicə aldığı göstərilsə də, faktiki olaraq 14 nəfər, 15 dekabr tarixində 30 nəfər xəstənin stasionar şəraitdə müalicə aldığı göstərilsə də, faktiki olaraq 17 nəfər olub, stasionar müalicədə olan vərəmli xəstələrin xəstəxananı tərk etmələri ilə bağlı şöbənin müdirinin müvafiq razılığı olmayıb.Ümumilikdə auditin əhatə etdiyi illərdə Xidmətlər Zərfinə daxil olmayan digər xidmətlərin göstərilməsi, eləcə də müvafiq arayışların verilməsi ilə bağlı fiziki şəxslərdən əldə edilən gəlirlər artım dinamikasına malik olub, 2021-ci ildə bu istiqamətdə 175,1 min manat, 2022-ci ildə həmin illə müqayisədə 2,0 dəfə, 2023-cü ilin 9 ayı ərzində 2021-ci ilin göstəricisindən 2,8 dəfə, 2022-ci ilin göstəricindən isə 1,4 dəfə çox vəsait daxil olub. Xəstəxananın müxtəlif mənbələrdən formalaşan daxilolmalarının artımı fonunda bu gəlirlər daha sürətli tempə malik olmuş, nəticədə pay göstəricisi yüksəlib.



Tibbi xidmətlərin göstərilməsinə dair İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə xəstəxana arasında bağlanmış müqavilənin şərtlərinə əməl olunmayıb, xidmətlərin dəyəri gecikmələrlə ödənilib. Belə ki, auditin əhatə etdiyi illərdə məlumatlar 2-3 ay gecikmə ilə təqdim olunaraq Agentlik tərəfindən 2-3 ay da əlavə olmaqla ekspertizadan keçirilib, hər ilin son 2 ayı üzrə göstərilmiş xidmətlər barədə məlumatın təqdim edilməsi, ekspertizadan keçirilməsi və ödənilməsi növbəti ildə həyata keçirilib.

Dövlət əmlakının istifadəyə verilməsi hüquqi aktlarda müəyyən edilmiş prosedurlar pozulmaqla həyata keçirilmiş, bağlanılmış icarə və əməkdaşlıq müqavilələrinin tələblərinə əməl olunmayıb, səhiyyə sistemində aparılan islahatlar çərçivəsində əmlak üzərində mülkiyyət hüququnun dəqiqləşdirilməsi həyata keçirilməyib. Qeyd olunanlar icbari tibbi sığorta fondunun vəsaitlərinə əlavə tələbat yaradıb, gəlir əldə etmək imkanlarını və dövlət əmlakının funksional fəaliyyətin icrasında istifadə imkanlarını məhdudlaşdırıb.

Qüvvədə olan hüquqi aktların tələblərinə əsasən tibb müəssisələrini pulsuz dərman resepti blankları ilə Səhiyyə Nazirliyi təmin etsə də, Xəstəxana müəqivələr bağlamaqla blanklar alıb, bir sıra hüquqi aktların uzun illər əvvəl təsdiq edilməsi fonunda müasir tələblərin, qabaqcıl təcrübənin öyrənilərək təkmilləşdirilməməsi nəticəsində şəkərli diabetlə bağlı normaların ağırlıq dərəcəsindən asılı olmayaraq eyni dozada müəyyən olunması əhali sağlamlığının qorunması istiqamətində riskləri formalaşdırıb, eləcə də ərzaq təchizatı üzrə normalara əməl edilməməsi vəsait üzrə artıq icraya səbəb olub.

Qeyd edək ki, yuxarıdakılar Gəncə Şəhər Birləşmiş Xəstəxanasında həyata keçirilmiş audit nəticəsində aşkarlanan nöqsanların bir qismidir.

"Unikal"ın araşdırması zamanı məlum olub ki, 2022-ci ilin fevralında tibb üzrə fəlsəfə doktoru İlkin İsmayılov Gəncə şəhər Birləşmiş Xəstəxanasının direktoru vəzifəsinə təyin olunub.

İxtisasca ümumi cərrah olan İlkin İsmayılov , 2003-2009-cu illərdə Azərbaycan Tibb Universitetində təhsil alıb. İlkin İsmayılov 2009-cu ildə Azərbaycan Tibb Universitetinin Onkologiya kafedrasında, 2009-2016-cı illərdə isə Qazi Universitetinin Ümumi Cərrahiyyə kafedrasında fəaliyyət göstərib.

Son təyinatadək isə 25 sentyabr 2021-ci ildən Abbas Səhhət adına 1 saylı şəhər xəstəxanasının baş həkimi vəzifəsində işləyib.

İ.İsmayılov Gəncə şəhər Birləşmiş Xəstəxanasının direktoru vəzifəsinə gətirildikdən sonra TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov başqa təyinatlar da gerçəkləşdirib. Məsələn, Ruslan Əliyev Gəncə Şəhər Birləşmiş Xəstəxanasının inzibati məsələlər üzrə direktor müavini, Anar Məmmədov isə Gəncə Şəhər Birləşmiş Xəstəxanasının direktor müavini və Abbas Səhhət adına 1 saylı şəhər xəstəxanasının rəhbəri təyin olunub. Akademik Z.Məmmədov adına xəstəxananın rəhbəri vəzifəsini icra etmək isə Azad Quliyevə həvalə edilib.

Lakin belə görünür ki, V.Qurbanovun yeni təyinatları heç də özünü doğrultmayıb. Əks təqdirdə Gəncə Şəhər Birləşmiş Xəstəxanasında çox sayda ciddi nöqsanlar üzə çıxmazdı.

Yeri gəlmişkən, TƏBİB rəhbərinin istər Bakıda, istərsə də regionlarda yüksək postlara gətirdiyi şəxslərlə bağlı tənqidlər, iradlar bir növ adət halını alıb. Media və ekspertlər Qurbanovun təyinatlarının bir qayda olaraq özünü doğrultmadığı qənaətindədirlər. Gəncə Şəhər Birləşmiş Xəstəxanasında aşkarlanan nöqsanlar fonunda həmin qənaətlərin bir o qədər də haqsız olmadığını söyləmək mümkündür.

***Sənan Mirzə***

08_27 IYUI-QARA.qxd 3/1/2024 4:13 PM Page 4



# Sülh danışıqlarının "Berlin raundu": Vəziyyət gərginləşir, yoxsa düyün açılır...

***Məlum olduğu kimi, fevralın 28-i və 29-da Almaniyanın paytaxtı Berlin şəhərində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü keçirilib. Həmçinin, Almaniyanın xarici işlər naziri Analena Berbokun iştirakı ilə üçtərəfli görüş də baş tutub.***

Azərbaycanın XİN başçısı Ceyhun Bayramov ölkəmizin normallaşma və sülh gündəliyinin irəlilədilməsində qərarlı olduğunu bildirib. Almaniyanın xarici işlər naziri isə qeyd edib ki, Azərbaycanla Ermənistan arasında sabit sülhün bərqərar olması üçün imkan var.

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən sabiq xarici işlər naziri Elmar Məmmədyarov bildirib ki, görüşlərin keçirilməsi müsbət haldır: "Bir müddət idi ki, belə görüşlər keçirilmirdi. Berlin görüşü isə iki günlükdür. Bu görüşlərdən sonra növbəti görüşün harada keçirilməsi barədə bəyanat verəcəklər. Ən böyük irəliləyiş o zaman ola bilər ki, artıq görüşlər Berlində, Avropanın digər şəhərlərində, ABŞ-də və ya Rusiyada yox, Azərbaycan-Ermənistan sərhədində keçirilsin. Delimitasiya və demarkasiya üzrə komissiya necə ki, sərhəddə görüş keçirir, sülh müqaviləsinin üzərində işləyən adamlar da eyni şəkildə sərhəddə görüşməlidirlər. Ən yaxşı yol vasitəçilər olmadan, birbaşa görüş keçirməkdir. Onu da qeyd edim ki, sülh müqaviləsinin imzalanması üçün Ermənistan öz konstitusiyasına dəyişiklik etməlidir. Fərz edək ki, hər şey hazır oldu, imza atıldı. Konstitusiya məhkəməsinə verəndə məlum olacaq ki, bu müqavilə Ermənistanın konstitusiyasına ziddir. Ona görə də, ilk növbədə bu dəyişikliyi etməlidirlər. Sülh müqaviləsinin üzərində işləri davam etdirmək lazımdır. Amma inanmıram ki, hələlik güclü irəliləyiş olsun", - deyə o qeyd edib.

Sabiq nazir ötən gün azaraq Ermənistan ərazisinə keçən əsgərimizin azad edilməsi məsələsi ilə bağlı da fikirlərini bölüşüb: "Əsgərimiz hava şəraiti pis olduğuna görə yolunu azaraq qarşı tərəfə keçib. Bu da danışıqların mövzusudur. Yəqin ki, Ermənistan tərəfi deyəcək ki, hərbçiləri dəyişdirək. Hər bir halda əminəm ki, Azərbaycan öz əsgərini Vətənə geri qaytaracaq".

Siyasi şərhçi Aqşin Kərimov bizimlə söhbətində bildirib ki, Almaniyanın xarici işlər naziri Annalena Berbok görüşün vasitəçisi kimi Bayramovla Mirzoyanın müzakirələrini həm rəsmi, həm də qeyri-formal atmosferdə təşkil etdi.Onun fikrincə, dövlətlərarası dərin münaqişələrin mərhələli həllini ehtiva edən üsullardan biri də tərəfləri işgüzar mühitdən uzaq tutub, onların səmimi təmaslarına şərait yaratmaqdır: "Almaniya diplomatiyası belə bir mənzərəni Bayramov-Mirzoyan danışıqlarının gedişində canlandırdı. Hər halda, Azərbaycan və Ermənistan baş diplomatlarının Berbokun müşayiəti ilə villanın həyətində gəzintisi Berlinin "səmimi ortam" qura bilmək cəhdlərini qeyd edir. İkigünlük görüşlərdən dərhal sonra Almaniyanın etibarlı broker ola biləcəyi qənaətini hasil etmək bir qədər tələsik fikir kimi nəzərə çarpa bilər. Ancaq bu, indi üçün o qədər də əhəmiyyətli görünüşə malik deyil. Cari situasiyada Almaniyanın Bakı-İrəvan arasındakı təmaslarda nəyi hədəflədiyini və Berlinə səhnə arxasından hansı çubuqların işarə verdiyini izah etməyə ehtiyac yaranır. Almaniyanın vasitəçiliyinə uzunmüddətli perspektivdən baxsaq, rahatlıqla deyə bilərik ki, Berlin Bakı-İrəvan münasibətlərinin tənzimlənməsində həlledici rol almağa meyillənir, bununla Cənubi Qafqaz doktrinasını format edilən beynəlxalq nizama uyğunlaşdırmaq siyasətini nümayiş etdirir. Ona görə



Almaniya Azərbaycan-Ermənistan əlaqələrinin inşa edilməsindəki sülh missiyasını geosiyasi qütblərdə qarşılıqlı inamsızlıqları aradan qaldırmaq missiyası ilə yüklənib".

Müsahibimiz hesab edir ki, Almaniya üçün təyin edilmiş vəzifənin miqyasını üç bənd ilə belə təsvir etmək olar: "Ukraynadakı müharibə səbəbilə Rusiya ilə NATO arasında sıxışan Almaniya təhlükəsizlik narahatlıqlarını böyük ölçüdə aradan qaldırmağı arzulayır. Almaniya strateji uyğunlaşdırmalarının istiqamətlərini NATO ilə Rusiya arasında kəskinləşən münasibətlərin fazasından dartıb çıxararaq geosiyasi genişlənməsini Cənubi Qafqaza daşıyır. Almaniya iqtisadi zehniyyətini ümumi genişlənmə dünyagörüşünün mərkəzində tutaraq region dövlətləri ilə əlaqələrini dərinləşdirməyi qarşıya məqsəd qoyur. Bayramovla Mirzoyanın görüşünün keçirildiyi eyni gündə Azərbaycan Prezidenti İlham Əliyevin Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etməsi göstərdiyimiz istiqamət üzrə bir çox mətləbi aça bilər. Əliyev Almaniyanın aparıcı şirkət rəhbərləri ilə görüşündə Fransanın, Avropa İttifaqının ali nümayəndəsi Jozep Borrelin regionda məxfi geosiyasi məqsədlər güdən orbitdə olduqlarını bəyan etdi. Berlində nazirlərin görüşü, Bakıda Əliyevin bəyanatları - bu, Almaniyanı Avropa İttifaqının təməl daşı kimi gizli gündəliklərə qarşı hərəkət trayektoriyasına salmağa yardımçı olmalıdır".

A.Kərimovun qənaətincə, bu, Əliyevin Almaniyanın danışıqlardakı moderatorluq səylərinə hansı şərtlə razılıq verdiyinin əlamətlərini göstərir: "Yəni, Almaniya geoiqtisadi güc kimi özünün imkanlarını Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsinə sərf etməlidir. Bu, avtomatik olaraq Avropa İttifaqının digər gücü Fransanın qaranlıq gündəliyini neytrallaşdırmalıdır. Almaniya gərəcəyi işlərin müqabilində Azərbaycanın Cənubi Qafqazda yaratdığı geosiyasi reallıqların inkişafına sərmayə qoymalıdır. Almaniyanın bu müstəvidə hansı şücaətlər göstərəcəyi zamana və qlobal proseslərdəki hadisələrə bağlı məsələdir və onun gələcəkdə Rusiya ilə münasibətlərinə də təsir imkanına malikdir. Hərçənd ki, Almaniyanın regiondakı iştirakı Rusiyaya qarşı hədsiz böyüyəcək "Qərb məhsuldarlığı" kimi şərh etmək də olmaz. Çünki Almaniyanın, Fransadan fərqli olaraq, Ermənistanda nə hərbi baza yerləşdirmək, nə də regionu Rusiyanın geosiyasi niyyətindən uzaqlaşdırmaq üçün imkanları mövcuddur. Məntiq etibarı ilə, Azərbaycan və Ermənistan danışıqlarının Brüssel formatı ABŞ və Fransa tərəfindən zədələndiyindən onun Berlin üsulu ilə əvəzlənməsi təbii proses idi. Amma bu prosesin Rusiya tərəfindən dərin niyyətlərdə qısqanclıqla qarşılanacağı indi üçün real səslənmir.

Almaniyanın Bakı-İrəvan proqramında yerini müəyyən etməsi onun hansı vektorlar vasitəsilə təsirlərini artırmaq məramını açır. Bu, Berlinin geoiqtisadi alətləri vasitəsilə diplomatiyadakı rolunu qüvvətləndirməyə xidmət edir. Almaniya Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanması prosesində yeni sənədin və ya bəyanatın ərsəyə gəlməsinə çalışır. Çünki bu amil Ukraynadakı müharibədən dolayı narahat vəziyyətdə olan Almaniyaya bir qədər rahatlıq verə bilər. Azərbaycan Berlin formatının gələcəkdə geosiyasi qütbləşməni dərinləşdirəcək, Ermənistanı silahlandıracaq çətir altında olmaması üçün Almaniyadan zəmanət tələb edir. Berlin üsulu ilə danışıqlar Bakının xeyrinə nəticə versə, Almaniya üzləşdiyi mürəkkəb dilemmalara yeni genişlənmə siyasəti ilə cavab tapa bilər".

Atlas Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə deyib ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Berlin görüşü ortamı yumşaltmaq məqsədi daşıyır. "Ancaq işi yenə Paris poza bilər. Münxen görüşündən sonra da belə olmuşdu, liderlər Almaniyanın şəhərində görüşüb fikir mübadiləsi aparmaqla ortamı yumşaltmışdılar. Ancaq bu görüşdən sonra Ermənistanın baş naziri Nikol Paşinyanın Parisə çağrılması və onun oradan Azərbaycan əleyhinə verdiyi açıqlamalar gərginliyi yenidən artırdı. Paris bu dəfə də eynisini edə bilər. Digər tərəfdən Paris Berlinin vasitəçilik təşəbbüslərinə qısqanc yanaşır. Paris yanlış siyasətinə görə kənarda qalıb. Anti-Azərbaycan siyasətinə görə Paris Bakı ilə İrəvan arasında vasitəçi statusunu itirib. Bu rola hazırda Berlin iddialıdır və hələ ki, pis alınmır" - deyə əlavə edib.

Politoloq Zərdüşt Əlizadə Bakıvaxtı.az-a açıqlamasında deyib ki, obyektiv və subyektiv çətinliklərə baxmayaraq, Azərbaycan və Ermənistan sülhə doğru addımlar atırlar. Ekspert vurğulayıb ki, bəzən böyük, bəzən kiçik olsa da, sülh istiqamətində cəhdlər, təşəbbüslər ortadadır: "Yəni proses gedir. Ən əsası da odur ki, artıq danışıqlar ikitərəfli qaydada gedir. Vasitəçilərin, üçüncü tərəflərin olmaması ciddi məsələdir. Almaniya tərəflərin sülh danışıqlarında vasitəçi deyil. Rəsmi Berlin sadəcə görüş təşəbbüsünü irəli sürüb və məkan təklif edib. Almaniya ev sahibidir. Ev sahibi görüşdə iştirak edə, müzakirələri dinləyə bilər. Biz də Berlinə ev sahibi olduğuna, görüş üçün məkan təklif etdiyinə görə təşəkkürümüzü bildiririk". Onun sözlərinə görə, nəzərə alaq ki, əvvəlki dönəmlərdə, yəni 10-15 il əvvəl vasitəçilər başqa missiya icra edirdilər. Rusiya, Fransa və ABŞ münaqişə tərəflərinə hansısa şərt və tələbləri, formulları təklif edirdilər:"Əgər tərəflər qəbul edərdisə, hansısa görüş baş tuturdu, müzakirələr gedirdi. Yox əgər tərəflərdən biri razı olmurdusa, təbii olaraq proses irəliləmirdi. Həmin vasitəçilərin niyyətləri xoş deyildi və öz məqsədlərini güdürdülər. Almaniya isə xoşniyyətlidir".

Analitik vurğulayıb ki, ümumiyyətlə bundan sonra tərəflər arasında danışıqlar ancaq ikitərəfli formatda gedəcək: "Fransa heç bir halda tərəflərin təmaslarına müdaxilə edə, danışıqlar prosesini poza bilməz. İkitərəfli danışıqlarda söz sahibi ancaq tərəflər özləri olur. Bu da Azərbaycan və Ermənistandır. Bakı və İrəvanın razılığı olmadan hər hansı üçüncü tərəf müzakirələrə qoşula bilməz. Azərbaycan öz qəti mövqeyini ortaya qoyub və vurğulayıb ki, Fransa burada artıq ölkədir və onun vasitəçiliyi bizə lazım deyil. Nəinki vasitəçiliyini, ümumiyyətlə Fransanın adını belə eşitmək istəmirik".

***M.İbrahimli***

# Prezidentdən Sumqayıtla bağlı sərəncam



***Prezident İlham Əliyev Sumqayıt şəhəri ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən Sumqayıt şəhəri ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 8,1 milyon manat ayrılıb.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Netanyahu İlham Əliyevi təbrik etdi

***İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.***

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Hörmətli cənab Prezident.

Bu yaxınlarda yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə İsrail xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Onilliklər ərzində xalqlarımız ortaq məqsəd və maraqlara əsaslanan isti münasibətlərə malik olublar. Siz iyirmi il əvvəl prezidentliyə başladığınız vaxtdan bizim əməkdaşlığımız bir çox sahələrdə genişlənib və yeni zirvələrə yüksəlib.

Keçən il Azərbaycanın İsraildə səfirliyinin tarixi açılışında aydın şəkildə nümayiş etdirilən dostluq münasibətinə görə təşəkkür edirəm.

Qarşıdakı illərdə tərəfdaşlığımızı daha da inkişaf etdirmək üçün Sizinlə yaxından işləməkdə davam etməyi səbirsizliklə gözləyirəm".

# Ceyhun Bayramov Türkiyəyə gedib



***Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Türkiyəyə işgüzar səfərə yola düşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, səfər çərçivəsində Ceyhun Bayramovun Antalya Diplomatiya Forumunda iştirakı, "Türk dünyasında institusionallaşma: 21-ci əsrdə Türk Dövlətləri Təşkilatı" panelində çıxışı, eləcə də çoxsaylı ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulur.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# BQXK-dan azan əsgərimizlə bağlı açıqlama

***Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) Laçında əlverişsiz hava şəraitində azan və Ermənistan tərəfindən saxlanılan əsgərimizlə bağlı məlumat yayıb.***

"Unikal" xəbər verir ki, bu barədə BQXK-nın Bakı ofisinin "X" hesabında paylaşım edilib.

"Azərbaycan hərbçisinin saxlanılması ilə bağlı aidiyyəti orqanlarla konfidensial, ikitərəfli dialoq aparırıq", - məlumatda vurğulanıb.

Qeyd edək ki, Laçında xidməti mövqelər arasında əlverişsiz hava şəraitində istiqaməti itirərək azan Azərbaycan hərbçisi Ruslan Pənahov Ermənistan hərbçiləri tərəfindən saxlanılıb. Onun barəsində bir neçə uydurma ittiham üzrə cinayət işi başlanılıb.

# Rəsmi Bakıdan Avropa Parlamentinin qətnaməsinə reaksiya

***"Ölkəmizə qarşı müddəaların əks olunduğu "Ümumi xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsi haqqında illik hesabatı" qətiyyətlə pisləyir və rədd edirik".***



"Unikal" xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsi tərəfindən hazırlanmış "Ümumi xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsi haqqında illik hesabatı" üzrə qəbul edilmiş qətnaməyə dair şərhində qeyd olunub.

Bildirilir ki, Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının tərkib hissəsi olan, bütün faktların təhrif olunduğu, böhtan xarakterli və tamamilə əsassız bu müddəalar Avropa İttifaqının ümumi xarici və təhlükəsizlik siyasətinin gələcəyinə dair ciddi suallar yaradır: "Təəssüf ki, xarici və təhlükəsizlik siyasətinə dair dayaz yanaşmanın əksi olan bu hesabat, həm də Avropa Parlamentinin üzvlərinin populist siyasətin əsiri olduqlarını, həmçinin regionumuzla bağlı düzgün strateji yanaşma inkişaf etdirməkdən nə qədər uzaq olduqlarını göstərir. Bəyanatlarında ərazi bütövlüyü və suverenliyə hörməti aşılayan Avropa İttifaqının bir qurumu olan Avropa Parlamentinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı nümayiş etdirdiyi bu hörmətsizlik, ölkəmizin öz suveren ərazilərində heç bir mülki əhalinin hədəf alınmadığı antiterror tədbirlərini pisləməsi və ərazilərimizdə separatçılığın və Ermənistanın keçmiş işğalçılıq siyasətinin təşviq olunması bir daha göstərir ki, Avropa Parlamenti üçün beynəlxalq hüquq və Avropa İttifaqının maraqları yox, parlament üzvlərinin şəxsi maraqları üstünlük təşkil edir. Nə qədər ki, Avropa İttifaqı öz qurumlarında baş verən bu özbaşınalığa son qoymayacaq, qurumun xarici və təhlükəsizlik siyasəti beynəlxalq münasibətlər sistemində öz utopik yanaşmalarının əsiri olmaqda davam edəcəkdir".

# Berlində Azərbaycan və Ermənistan XİN başçılarının növbəti görüşü keçirildi

***28-29 fevral 2024-cü il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında Almaniyanın paytaxtı Berlin şəhərində Villa Borsigdə danışıqlar aparılıb.***

XİN-dən "Unikal"a verilən məlumata görə, nazirlər və onların heyətləri arasında "Sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında ikitərəfli Saziş" layihəsinin müddəaları üzrə mövqelər müzakirə edilib. Bəzi əsas məsələlər üzrə əlavə işin davam etdirilməsinə ehtiyac olduğu qeyd edilib.

Səfər çərçivəsində, nazirlər Almaniyanın xarici işlər naziri Annalena Berbok ilə görüşüblər.



Nazir Ceyhun Bayramov Azərbaycan və Ermənistan arasında danışıqlara ev sahibliyi etdiyinə görə Almaniya tərəfinə minnətdarlıq ifadə edib.

# Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirildi

***Fevralın 29-da hüquq ictimaiyyəti üçün önəmli olan aktual mövzuların müzakirəsinə hər zaman üstünlük verən Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycanın Baş prokuroru Kamran Əliyevin sədrliyi ilə keçirilən iclasda müxtəlif dövlət orqanları nümayəndələri, aparıcı ali təhsil müəssisələri, ixtisaslaşmış akademiya və elm ocaqlarını təmsil edən görkəmli hüquqşünaslar iştirak edib.

Giriş nitqi ilə çıxış edən Baş prokuror fevralın 7-də keçirilən azad, ədalətli, şəffaf və bütün beynəlxalq standartlara cavab verən növbədənkənar prezident seçkiləri və Müzəffər Ali Baş Komandan İlham Əliyevin seçkidə parlaq qələbəsindən söz açaraq bu zəfərin yeni dövrdə ölkəmizdə bütün sahələrdə elmi-texnoloji inkişafa, müasir texnologiyaların tətbiqinin genişləndirilməsinə böyük təkan olacağını diqqətə çatdırıb.



Vurğulanıb ki, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və dünyanın ən aktual bəşəri problemlərinin müzakirə edildiyi mühüm beynəlxalq platforma olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi ölkəmiz üçün çox əhəmiyyətli bir il olacağını göstərir.

Bundan başqa, müasir dövrün tələblərinə uyğun olaraq cinayət təqibinin üsul və vasitələri, cinayət prosesi və onun tərkib hissəsi kimi cinayət ədalət mühakiməsinin rəqəmsallaşmaya məruz qalmasını nəzərə alaraq, elektron cinayət təqibinin xüsusiyyətlərinin müzakirəsi və bu sahədə müvafiq təkliflərin hazırlanmasının zəruriliyi qeyd olunub.

Daha sonra prokurorluq əməkdaşları tərəfindən "Elektron cinayət təqibinin tətbiqi ilə bağlı qanunvericiliyin, hüquq tətbiqi təcrübəsinin hazırkı vəziyyəti və qarşıda duran vəzifələr", "Elektron cinayət təqibinin tətbiqi ilə bağlı xarici ölkələrin təcrübəsi", "Azərbaycanda elektron cinayət təqibinin tətbiqi ilə bağlı təkliflər", "Cinayət təqibi zamanı blokçeyn texnologiyalarının tətbiqi imkanları" mövzularında məruzələr edilib, digər Şura üzvlərinin rəy və təklifləri dinlənilib.

İclasda, həmçinin, Baş Prokurorluğun müvafiq idarələri tərəfindən hazırlanmış "Cinayət aktivlərinin aşkarlanması, izlənməsi və bərpası", eləcə də, "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar qanunvericilik və istintaq təcrübəsi" adlı metodik vəsaitlərin təqdimatı keçirilib.

# Milli Məclis Avropa Parlamentinin hesabatını pislədi




***Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin fevralın 28-də “Ümumi təhlükəsizlik və müdafiə siyasətinin həyata keçirilməsi” ilə bağlı qəbul etdiyi illik hesabatda əksini tapmış qərəzli, birtərəfli, beynəlxalq hüquq və ədalət anlayışları baxımından etinasız, laqeyd fikirləri kəskin şəkildə qınayır və buna qətiyyətlə etiraz edir.***

“Unikal” xəbər verir ki, bu fikirlər Milli Məclisin hesabatla bağlı açıqlamasında yer alıb. Bildirilib ki, uzun illər ərzində Avropa strukturlarının, xüsusən də Avropa Parlamentinin Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalının ağır nəticələrinə, törədilmiş vandallıqlara, bir neçə gün əvvəl növbəti ildönümü qeyd olunmuş Xocalı soyqırımına siyasi-hüquqi qiymət verməkdən ardıcıl surətdə imtina etməsi bu dairələrin selektiv və ikili standartlara əsaslanan yanaşması baxımından adi hala çevrilmişdi.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük qurbanlar hesabına öz torpaqlarını işğaldan azad edərək, beynəlxalq hüququn norma və prinsiplərini təkbaşına yerinə yetirməsinə göstərilən münasibət də əvvəlkilərdən fərqlənmirdi.

Lakin belə görünür ki, Avropa Parlamenti Cənubi Qafqaz regionunda baş verən hadisələrə özünün riyakar və ikiüzlü yanaşmalarında “yeni nailiyyətlər” qazanmaq əzmini davam etdirmək niyyətindədir. Populizm və demaqogiyanı əlində rəhbər tutan, sülhə və sabitliyə xidmət etməyən sənədləri, açıqlamaları dövriyyəyə buraxmaqla özlərinə siyasi kapital qazanmağa çalışan avropalı siyasətçilər müəyyən dairələrin onlar üçün nəzərdə tutduğu “alət” rolunu inamla oynamaqda israrlıdırlar.

Avropa Parlamentinin illik hesabatında əks olunmuş bir sıra məqamlar da məhz bunu deməyə əsas verir. Ermənistanın rəsmi bəyanatları ilə eynilik təşkil edən həmin məqamlara nəzər yetirdikdə, bu sənədin erməni lobbisinin təsiri və diktəsi altında hazırlandığı özünü aydın şəkildə büruzə verir.

Qeyd olunan sənəd həm də Avropa Parlamentində Azərbaycanafob və islamafob təfəkkürün, şovinist və irqçi ideologiyanın getdikcə daha da güclənməkdə olduğunu göstərir. Bu zərərli tendensiyaların ardıcıl və davamlı şəkildə nümayiş etdirilməsi məsələsində Avropa Parlamentinin Avropa Şurası Parlament Assambleyası ilə açıq rəqabətə girdiyi aşkar sezilməkdədir.

Diqqətə çatdırılıb ki, Avropa Parlamentinin bu hesabatı Cənubi Qafqaz regionundakı mövcud reallıqları nəinki təhrif edir, həm də cərəyan edən prosesler baxımından kifayət qədər təhlükəli xarakter daşıyır.

Məhz Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra regionda uzunmüddətli sülh və sabitliyin bərqərar olması istiqamətində göstərdiyi səylər, Ermənistanın isə ötən dövr ərzində sülh prosesinə zərbə vuran siyasi-hərbi təxribatları, şərti sərhəddə yaratdığı gərginliklər Avropa Parlamenti tərəfindən nədənsə bilərəkdən görməzdən gəlinir.

Digər tərəfdən Almaniyada sülh danışıqlarının davam etdiyi bir vaxtda qəbul edilmiş bu qətnamə və irəli sürülən absurd iddialar ciddi suallar doğurur: Avropa Cənubi Qafqazda sülhün bərqərar olmasında həqiqətən də maraqlıdırmı? Azərbaycana qarşı qəti addımların atılmasına, sanksiyaların tətbiqinə çağıran Avropalı parlamentarilər üçün Azərbaycanın suverenliyi və ərazi bütövlüyü Ermənistanın suverenliyi və ərazi bütövlüyündən daha az əhəmiyyətlidirmi?

“Hesabatda Ermənistanın silahlandırılmasının zəruriliyinə dair yer alan fikirlər isə regiondakı vəziyyəti gərginləşdirmək, sülh prosesini əngəlləmək niyyətini bariz şəkildə əks etdirir.

Görünən budur ki, Avropa Parlamenti artıq Fransanın anti-Azərbaycan siyasətini aşkar şəkildə mənimsəyib, Makron və Borrel kimi “siyasətçilər”in konkret məqsədlərə xidmət edən düşüncələrini özünə siyasi xətt kimi seçib. Bu düşüncəli sülh, təhlükəsizlik və demokratiya səyləri ilə pərdələməkdən isə çəkinmirlər.

Avropa Parlamenti başa düşməlidir ki, daha əvvəl qəbul etdiyi qətnamələr kimi, bu sənəd də Azərbaycan üçün heç bir əhəmiyyət daşımır. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi heç kim tərəfindən şübhə altına alına bilməz. Heç kim Azərbaycana təzyiq göstərə bilməz.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmiz artıq yeni dövrə qədəm qoyub. İşğaldan azad olunmuş ərazilərini bərpa edən, məcburi köçkünləri öz doğma torpaqlarına qaytaran güclü və qətiyyətli Azərbaycan üçün bu dövr həm də beynəlxalq səviyyədə sülhə, ədalətə, dürüstlüyə və səmimiyyətə əsaslanan əməkdaşlığı və tərəfdaşlığı ehtiva edir. Avropa Parlamentinin rəhbər tutduğu “prinsiplər” isə birmənalı şəkildə rədd edilir.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin regionda sülh və sabitliyin təmin olunması istiqamətində göstərilən səylərə zərbə vurmaq niyyətini qəti şəkildə qınayır, bu cür cılız təxribatlarla deyil, Avropanı narahat edən ciddi və təxirəsalınmaz məsələlərlə məşğul olmağı tövsiyə edir”, - deyə açıqlamada qeyd olunur.

## Qarabağ Universitetində çalışacaq müəllimlərin əməkhaqları yüksək olacaq




***2024-2025-ci tədris ilində Qarabağ Universitetində 1000 tələbənin təhsil alması planlaşdırılır.***

”Unikal” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev fevralın 29-da keçirilən brifinqdə deyib. O bildirib ki, universitetdə 70 nəfər professor-müəllim heyətinin yer alması planlaşdırılır:

“Yaxın 5 ildə universitetdə tələbə sayının 5 minə çatdırılması gözlənilir. Pedaqoji, mühəndislik, iqtisadiyyat, incəsənət, humanitar və sosial, turizm fakültələri olacaq”.

Nazir qeyd edib ki, universitetdə çalışacaq müəllim heyətinin əməkhaqları nisbətən yüksək olacaq: “Yaxın ərazidə yaşayan müəllim heyətinin cəlb olunması nəzərdə tutulur. Xankəndi, Şuşa, Ağdamdan olan alimlərimizlə görüş baş tutacaq. İşçi heyəti Xankəndidə mənzillə təmin olunacaq”.

## Qızılcaya görə məktəblər bağlanacaq?

***Qızılca ilə bağlı məktəblərin distant təhsilə keçməsi məsələsinə aydınlıq gətirilib.***

”Unikal” xəbər verir ki, bu barədə elm və təhsil naziri Emin Əmrullayev media üçün keçirilən brifinqdə çıxışı zamanı deyib.

“Məktəblər qızılcaya görə bağlanmayacaq və distant təhsilə keçirilməyəcək. Uşaqlara vaxtında peyvəndləmə olmadığdan sonra 6-7 il sonra bu kimi hallarla rastlaşırıq. Uşaqların peyvəndlənməsi önəmlidir.

Məktəblərdə müvafiq ehtimallar nəzərə alınaraq nəzarət gücləndirilib, pedaqoji kollektivə şagirdlərin səhhətində müşahidə oluna biləcək hər hansı narahatlıq halları ilə bağlı daha diqqətli olmaları tövsiyə edilib”, - deyə nazir bildirib.

## Məktəblərdə imtahanların sayı azaldıla bilər

***“Hesab edirəm ki, ümumi təhsil müəssisələrində imtahanların sayı çoxdur”.***

“Unikal” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev bu gün keçirdiyi brifinqdə deyib. Nazirin sözlərinə görə, hazırda imtahanların sayının azaldılması müzakirə mərhələsindədir.

Qeyd edək ki, orta məktəblərdə şagirdlərin bilik və bacarıqlarının yoxlanılması üçün vaxtaşırı olaraq qiymətləndirmə imtahanları - BSQ və KSQ-lər keçirilir.

## Səfərbərlik Xidmətinin 136 əməkdaşı məsuliyyətə cəlb edilib

***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən 2023-cü ilin may ayından etibarən korrupsiyaya qarşı mübarizə və şəffaflığın artırılması istiqamətində kompleks tədbirlər, o cümlədən normativ hüquqi bazanın təkmilləşdirilməsi sahəsində müvafiq işlər görülüb.***

”Unikal” xəbər verir ki, qanunvericiliyin tələblərini pozmuş vəzifəli şəxslər barəsində xidməti yoxlamalar aparılaraq 2023-cü ildə 78 əməkdaş, 2024-cü ilin müvafiq dövründə isə 58 əməkdaş barəsində ciddi intizam tənbehi və təşkilati-ştat tədbirləri görülüb. 2023-cü ildə 15 fakt üzrə 22 nəfər, 2024-cü ildə isə 6 fakt üzrə 26 nəfər barəsində toplanmış materiallar əməllərinə hüquqi qiymət verilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib.

Bundan başqa, xaricdə ali təhsil almaları ilə bağlı saxta sənəd təqdim etməklə və digər yollarla müddətli həqiqi hərbi xidmətə çağırışdan yayınan şəxslərin hərəkətlərinə prosessual qiymət verilməsi üçün Xidmətin yerli qurumlarında toplanmış çoxsaylı materialların aidiyyəti istintaq orqanlarına göndərilməsi təmin edilib.

Qeyd edək ki, bu kimi tədbirlər “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamının, korrupsiyaya şərait yaradan amillərin aradan qaldırılması ilə bağlı tələb və tapşırıqlarının icrasını təmin etmək məqsədilə həyata keçirilir.

Xidmətin strukturunda korrupsiya hüquq pozuntusu və digər qanunsuz tələblə üzləşən vətəndaşların 9100 Çağrı Mərkəzinə və ya info@seferberlik.gov.az elektron ünvanına müraciət etməsi xahiş olunur. Xidməti fəaliyyətdə şəffaflığın və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə bu kimi tədbirlər davamlı olaraq həyata keçiriləcək.

08_27 IYUl-QARA.qxd 3/1/2024 4:15 PM Page 7





## "Məktəbdə cinsi qısnama iddiası ilə bağlı heç bir sübut tapılmadı" - Nazir

***Elm və təhsil naziri Emin Əmrullayev məktəbli qızlar arasında baş verən bullinqə münasibət bildirib.***

"Unikal" xəbər verir ki, nazir bildirib ki, bu hadisə hazırda hüquq-mühafizə orqanları tərəfindən araşdırılır: "Bu hadisə də daxil olmaqla məktəbli ilə bağlı istənilən hala görə 150 min müəllimi günahlandıra bilmərik. Çünki yeniyetmələr arasında belə hallar baş verir".

Nazir 6 nömrəli məktəbdə baş verən hadisəyə də münasibət bildirib: "6 nömrəli məktəbdə də 8 yaşlı, ikinci sinifdə oxuyan uşağın valideyni iddia edib ki, 13 yaşlı uşaq onun övladını hansısa cinsi zəmində qısnamaya məruz qoyub. Dərhal burada hansısa cinayət halı və ya hüquq pozuntusu ola bilər deyə polis orqanlarına müraciət edilir. Polis orqanları aidiyyəti araşdırmanı aparıb, ekspertiza da aparılıb, nəticə etibarı ilə bu hadisənin baş verib-verməməsi ilə bağlı hansısa sübut əldə olunmayıb".

Gəncədə baş verən hadisəyə gəldikdə isə nazir deyib ki, IX sinifdən sonra təhsilini davam etdirməyən bir şagird məktəbə gedib: "Məktəb kontingenti təbii olaraq onu məktəb üzvü olmadığı üçün içəri buraxmayıblar. Həmin şagird isə bu və ya digər səbəbdən başqa şagirdə xəsarət yetirərək həyatına son qoyub. Çox kədərli hadisədir, heç kim bunu istəməz. Amma yeniyetmələr aramızda cinayət halları yalnız bizim ölkədə və bizim təhsil sistemimizdə deyil. Bununla bağlı da hüquq-mühafizə orqanlarına məlumat verilib, hazırda cinayət işi aparılır. Cəzanı da yenə biz yox, məhkəmə verəcək".

## Metroda gediş haqqı artırılacaq? - Rəsmi açıqlama



***"Bakı Metropoliteni" QSC-də gediş haqlarının artırılması barədə müzakirələr aparılmır.***

"Unikal" xəbər verir ki, bunu jurnalistlər açıqlamasında "Bakı Metropoliteni" QSC-nin sədr müavini Hidayət Məmmədov deyib.

Bundan başqa, H.Məmmədov bu il Bakıya yeni vaqonların gətiriləcəyini bildirib.

"Yeni vaqonların alınması üçün müqavilələr imzalanıb. Onların gətirilməsi üçün işlər görülür. Hədəfimiz 65 yeni vaqonun Bakıya gətirilməsidir", - deyə sədr müavini əlavə edib.

## Möhübbət Babayev vəzifədən azad edildi



***Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşovun birinci müavini Möhübbət Babayev vəzifədən azad olunub.***

Möhübbət Babayev yaşa görə təqaüdə çıxıb. Hazırda Lənkəran ŞİH başçısının birinci müavini ilə yanaşı başçının müavini - Şəhər təsərrüfatı şöbəsinin müdiri vəzifəsi boşdur.

Qeyd edək ki, M. Babayev 2017-ci ildə icra başçısının birinci müavini təyin edilmişdi.

# "Fransa bölgədə yenidən müharibəni qızışdırmaq istəyir"

## Qabil Hüseynli: "Bu ölkədə islamafobiya, türkfobiya o qədər yüksək inkişaf edib ki, erməniləri bu məsələdə alət kimi saxlamaq istəyirlər"

***Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal"a müsahibə verib. O, Berlində Azərbaycan və Ermənistan XİN rəhbərlərinin keçirdiyi görüşün əhəmiyyətindən, sülh müqaviləsinin nə zaman imzalana biləcəyindən və sülh danışıqlarının getdiyi zamanda Fransanın Ermənistanı silahlandırmasından danışıb.***

***-Qabil müəllim, Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən bir sıra vacib məsələlərdən danışıb. Məlum olduğu kimi, Avropa Şurası Parlament Assambleyası Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərar qəbul edib. Dövlət başçısı bildirib ki, əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik. Qarşı tərəf bu fikirlərdən hansı nəticələr çıxarmalıdır?***



-Prezidentin bu fikirləri kifayət qədər təsiredici və nəticə verə biləcək bir çağırış idi. Bolqarıstan, Macarıstan, Albaniya və bir neçə başqa dövlət AŞPA rəhbərliyinə müraciət edərək Azərbaycanın AŞPA-dan çıxarılmasının qanunsuz və proseslərə uyğun olmadığını söyləyiblər. Tələb ediblər ki, Azərbaycan AŞPA-ya qaytarılsın. Bu Almaniyanın təşəbbüsü ilə olsa da, 1-2 aydan sonra özü də tələb edəcək. Azərbaycanla strateji tərəfdaşlıq əlaqələrinə malik olanlar çoxdur. Proseslər ümidvericidir. Həmçinin, Avropa ölkələrinin bir çoxunu neft və qazla təmin edirik. Heç kəs belə bir strateji tərəfdaşı kənarda qoymağa razı olmaz.

***- Azərbaycan İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış edib və sülh müqaviləsinin mətninin layihəsini Ermənistana təqdim edib. Qarşı tərəfin bu məsələni uzatması nə ilə bağlıdır?***

-Bəlkə də onların sülh məsələsini uzatmaqda ciddi məqsədi yoxdur. Sadəcə onlar elə pis arzularla yaşayan xalqdır ki, həmişə prosesləri uzatmaq, zamanın axarına buraxırlar. Düşünürlər ki, bəlkə də onlara yeni dəstək və kömək gəldi. Prosesi uzatmaqla əvvəlcə Fransanın köməyinə nail oldular. İndi də Almaniyanı ora qoşmağa çalışırlar. Eyni zamanda, ABŞ-də bu proseslərin içərisindədir. Ermənistan tərəfi hər şeyi zamanın ixtiyarına buraxmaqla, xristian dünyasının tam dəstəyini almağa çalışırlar. Bununla Azərbaycanı təkləmək istəyirlər. Ermənistan parlamentinin sədri Alen Simonyan hikkəli formada deyib ki, Azərbaycan Ermənistanla sərhəddə bir neçə yüksəklikdən çıxmalıdır. Özü də XİN rəhbərlərinin Berlində danışıqlar apardığı zamanda belə bir fikir səsləndirir. Sülh danışıqlarının çərçivə hüdudları hazırdır. Sülh müqaviləsi imzalanmağa çox yaxındır. Amma Ermənistan tərəfi sülh danışıqlarının getdiyi zamanda ərazi, yüksəklik iddialarını ortaya atmaqda davam edirlər.

***- Bu günlərdə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Berlində görüşü keçirilir. Bu görüşün sülhə nə kimi töhfəsi olacaq?***

-Bu görüşü əhəmiyyətli hesab edirəm. İlk növbədə sülh danışıqları yenidən başlayır. Tərəflər sülhə meyilliyi nümayiş etdirirlər. Onu da qeyd edim ki, sülhün formatı ötən ildən hazırdır. Bir sıra kiçik məsələlər var. Məsələn, anklavlar, onların iddia etdiyi guya Azərbaycanın Ermənistan ərazisində müəyyən torpaqları istila etməsi və s. var. Bunların hamısı müzakirə edilməlidir. Amma sülh müqaviləsi hazırdı və təkcə onun imzalanması qalıb.

***- Sülh danışıqları fonunda Fransanın Ermənistanı silahlandırmaqda məqsədi nədir?***

-Fransa müsəlman dünyasının düşmənidir. Bu ölkədə islamafobiya, türkfobiya o qədər yüksək inkişaf edib ki, erməniləri bu məsələdə alət kimi saxlamaq istəyirlər. Fransa ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olub. İndi görün bunlar həmin vaxt da ölkəmizə qarşı nə qədər mənfi hərəkətlər ediblər. Sülh müqaviləsinin müzakirə olunduğu bir zamanda Ermənistanı silahlandırırlar. Əvvəl deyirdilər müdafiə silahlarıdır, indi isə məlum olur ki, hücum silahları da göndərirlər. Hətta hərbi dəstələr göndərə biləcəkləri ilə bağlı vədləri erməniləri ürəkləndirib. Qorxa-qorxa danışan Ermənistan indi başqa ritorikada danışır. BMT-nin Təhlükəsizlik Şurasının üzvü olan Fransa sülhə can atmaq əvəzinə bölgədə yenidən müharibəni qızışdırmaq istəyir. Başa düşmürlər ki, bu bölgədə nə qədər problemlər var, dövlətlər arasında münasibətlər nizama salınmalıdır. Buna əhəmiyyət vermirlər. Fransanın keçmişinə, müstəmləkə dövrünə, indiki Avropa siyasətində oynadıqları rola diqqət yetirəndə görürsən ki, əslində barbardırlar. İçəriləri başqa xalqlara qarşı kin və nifrətlə doludur. Azərbaycana qarşı münasibətdə isə onların başında duran parabeyin Makron daha zalım və əzazil adamdır. Nə qədər atılıb düşsələr də, hər şey öz yerini tutacaq.

***Anar Kəlbiyev***

# Oqtay Şirəliyevin hələ də vəzifədə olan kadrı tənqid hədəfində

## Səhiyyə Nazirliyinin idarələrindən birinin keçirdiyi tenderlər niyə müzakirə mövzusuna çevrilib?

***Səhiyyə Nazirliyinin İnformatika və Statistika İdarəsinin keçirdiyi bəzi satınalma müsabiqələri ilə bağlı maraqlı məlumatlar yayılıb. Bu barədə qlobal.az-ın hazırladığı materialda qeyd edilib ki, məsələn, 2023-cü il noyabr ayının 29-da ""Med stat" hesabatların online təqdim edilmə sistemi ilə bağlı keçirilən təlimatlandırma üzrə kurslarda tələb olunan malların satınalınması" lotu üzrə yekun vurduğu satınalma baş tutub.***



Bu satınalmanın məbləği 48.322 manat, qalibi isə "YURD-BAKU CORP" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1008353801) olub.

"YURD-BAKU CORP" MMC İnformatika və Statistika İdarəsinin sözügedən satınalmasından bir ay əvvəl - 2023-cü ilin oktyabr ayının 11-də dövlət qeydiyyatına alınıb.

Şirkətin hüquqi ünvanı naməlumdur: Binəqədi rayonu, Ziya Bünyadov ev 15. Onun qanuni təmsilçisi isə Cəfərova Günel Şahin qızıdır.

Bildirilir ki, Cəfərova Günel Şahin qızının adına xeyli sayda MMC-lər təsis edilib. Bu MMC-lər büdcədən maliyyələşən təşkilatların sifarişçi olduqları satınalmalarda müntəzəm olaraq qalib elan edilir.

"YURD-BAKU CORP" MMC-nin fəaliyyət profili, müvafiq lisenziyaları, faktiki ünvanı barədə açıq internet resurslarında məlumat yoxdur.

İddia olunur ki, İnformatika və Statistika İdarəsi növbəti şübhəli satınalmasını 2023-cü il iyul ayının 25-də keçirib. İdarənin "Dəftərxana və təsərrüfat mallarının satınalınması" lotu üzrə keçirdiyi satınalmanın məbləği 16.610 manat, qalibi isə "GLOBAL STATIONERY OFFICE" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1405058441) olub.

"GLOBAL STATIONERY OFFICE" MMC 2020-ci ilin fevral ayının 12-də dövlət qeydiyyatına alınıb. Şirkətin hüquqi ünvanı Nəsimi rayonu, Alı Mustafayev ev 15, mənzil 24, qanuni təmsilçisi isə Cavadov Mayıl Pərviz oğludur. Cavadov Mayıl Pərviz oğlunun da "proxy" şəxsdir. Onun adına da xeyli sayda MMC təsis edilib. Bu şirkətin də fəaliyyət profili barədə açıq internet resurslarında məlumata rast gəlinmir.

İnformatika və Statistika İdarəsi 2023-cü ilin iyul ayının 17-də "Qeyri-maddi aktivlər maddəsi üzrə Hesabatların toplanılma sisteminin təkmilləşdirilməsi, şəbəkəyə nəzarət üçün idarənin serverinin sazlanması və hostların yenilənməsi" lotu üzrə satınalmaya yekun vurub.

Bu satınalmanın məbləği 19.850 manat, qalibi isə "LANMERD COMPANY" Məhdud Məsuliyyəti Cəmiyyəti (VÖEN: 2007787681) olub.

"LANMERD COMPANY" MMC-nin hüquqi ünvanı Xətai rayonu Məzahir Rüstəmov ev 22, mənzil 14 ünvanıdır. Şirkət 2023-cü ilin yanvar ayının 1-də dövlət qeydiyyatına alınıb, şirkətin qanuni təmsilçisi isə Almasov Rəşad Fazil oğludur.

Bu mənzildə - Xətai rayonu Məzahir Rüstəmov ev 22, mənzil 14 - hüquqi ünvanı olan daha bir şirkət isə "SIYAQUAR RD TRADE" Məhdud Məsuliyyətli Cəmiyyətidir (VÖEN: 2007852831). Həmin şirkət 2023-cü ilin iyun ayının 19-da İnformatika və Statistika İdarəsi ""Med stat" hesabatların online təqdim edilmə sistemi ilə bağlı keçirilən təlimatlandırma üzrə kurslarda tələb olunan malların satınalınması" lotu üzrə sifarişçi olduğu daha bir satınalmada qalib elan edilib.

Şirkətin qanuni təmsilçisi Adıgözəlov Şamo Mais oğludur. Bu şəxsin adına da xeyli sayda MMC-lər yaradılıb. Bu MMC-lər də dövlət büdcəsindən maliyyələşən təşkilatların satınalmalarında şübhəli məqsədlərlə istifadə olunur.

Əlbəttə ki, bu son deyil.

Xətai rayonu Məzahir Rüstəmov ev 22, mənzil 14 ünvanında hüquqi ünvanı olan daha bir şirkət - "SAPFIRON TRADE" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 2007787421) İnformatika və Statistika İdarəsinin "Mətbə mallarının satınalınması" lotu üzrə 2023-cü ilin may ayının 26-da yekun vurduğu satınalmada qalib elan edilib.Bu satınalmanın məbləği 48.978 manatdır.

Satınalmada qalib elan edilən "SAPFIRON TRADE" Məhdud Məsuliyyətli Cəmiyyətinin qanuni təmsilisi isə İnformatika və Statistika İdarəsinin digər satınalmasında qalib elan edilən "LANMERD COMPANY" MMC-nin qanuni təmsilçisi Almasov Rəşad Fazil oğludur.

İnformatika və Statistika İdarəsinin satınalmarında qalib edilən MMC-lərin heç birinin maddi-texniki bazası, fəaliyyət profilləri, faktiki ünvanları barədə açıq internet resurslarında məlumat verilmir.

Bəzilərinin hüquqi ünvanları və qanuni təmsilçiləri eyni olan, qeyri-şəffaf təşkilatların İnformatika və Statistika İdarəsinin satınalmalarında hansı meyarla əsasən qalib elan edilmələri bir sıra suallar yaradır.

İnformatika və Statistika İdarəsinin sifarişçi olduğu satınalmalar formal olaraq keçirildiyi, satınalmalarda qalib elan edilən MMC-lərin İdarə tərəfindən deyil, Səhiyyə nazirliyinin Maliyyə İdarəsinin rəisi tərəfindən müəyyən edildiyi iddia edilir.Materialı hazırlayan sayt məsələ ilə bağlı İnformatika və Statistika İdarəsindən mövqe öyrənə bilməyib. Səhiyyə nazirliyinin İnformatika və Statistika İdarəsinin fəaliyyəti ilə bağlı Hesablama Palatasından verilən açıqlamada isə deyilib: "Hesablama Palatası 2022-2023-cü illərdə Səhiyyə nazirliyinin İnformatika və Statistika İdarəsində audit həyata keçirməyib".

Xatırladaq ki, Səhiyyə nazirliyinin İnformatika və Statistika İdarəsinin rəisi Mehdi Əmrahovdur.Mehdi Əmrahov uzun illərdir bu quruma rəhbərlik edir.

O, 2012-ci ildə sabiq Səhiyyə naziri Oqtay Şirəliyev tərəfindən "Səhiyyə əlaçısı" döş nişanı ilə təltif olunub.

O da maraqlıdır ki, M.Əmrahov yuxarıdakı iddialar KİV-də yayıldıqdan sonra da hələlik bunlara münasibət bildirməyib. Həmçinin İnformatika və Statistika İdarəsi də hələ ki, sözügedən mövzuda susqunluq nümayiş etdirir.

***Sənan Mirzə***

# Ermənistanda saxlanılan hərbçimiz həbs edildi




***Ermənistanda Azərbaycan Ordusunun hərbçisinə qarşı uydurma ittihamlarla cinayət işi açılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan KİV-ləri nəlumat yayıb.

Bildirilir ki, hərbçi Ruslan Pənahov haqqında Ermənistan İstintaq Komitəsi təxribata cəhd, qanunsuz silah-sursat saxlama, irqi və dini ayrıseçkilik zəminində adam öldürməyə cəhd maddələri ilə cinayət işi açıb. Hazırda Ruslan Pənahov müstəntiqin qərarı ilə həbs olunub.

Hazırda işin detalları aydınlaşdırılır.

Xatırladaq ki, Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumata görə, fevralın 28-i səhər saatlarında Azərbaycan Ordusunun əsgəri Pənahov Ruslan Eldəniz oğlu Laçın rayonu ərazisindəki xidməti mövqelər arasında hərəkət edərkən əlverişsiz hava şəraitində istiqaməti itirərək azıb. Hərbi qulluqçumuzun tapılması məqsədilə dərhal başlanılan axtarış tədbirləri davam etdirilir.

# "Azərbaycan səngərlərini qorumalıykən..." - Komitə sədri



***"Nə qədər oğullarımız Azərbaycan səngərlərini qorumalıykən, Ukrayna müharibəsində iştirak üçün gedir və sonra tabutları gəlir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bu gün keçirilən komitə iclasında deyib.

Onun sözlərinə görə, Suriya və İraqdan Azərbaycana gətirilən uşaqların bir qismi hər iki valideynini itirir: "Belə olan halda onlar atılmış insanlara çevrilir. Azərbaycanda sığınacaqlar elə də çox deyil. Ona görə də onların gələcək taleyi aidiyyəti qurumları ciddi düşündürməlidir".

Komitə sədri bildirib ki, aldadılmış insanlar terror birləşmələrinə cəlb olunurlar: "Bunu Rusiya-Ukrayna savaşında da görməkdəyik. Nə qədər oğullarımız Azərbaycan səngərlərini qorumalıykən Ukrayna müharibəsində iştirak üçün gedir və sonra tabutları gəlir, bu sanki həyatımızın ayrılmaz hissəsinə çevrilir və qəbul olunur. Bu necə dözülesi hadisədir?! Suriyada terror birləşmələrinin tərkibində vuruşmaq cinayət hadisəsi hesab edilir, çünki bu, terror birləşməsidir. Ancaq nizami dövlət birləşmələrinin silahlı qüvvələrində olmaq cinayət yaratmır. Hesab edirəm ki, bu məsələdə peşəkar hüquq müdafiəçilərinin rəyi önəmli olar".

***Anar Kəlbiyev***

# Müharibə veteranlarının müavinəti artırılsın - Təklif



***"Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün məbləğinin artırılması təklif olunur.***

"Unikal" xəbər verir ki, bu, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb.

Qeyd olunub ki, müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün məbləğinin artırılması təklif edilir.

Xatırladaq ki, hazırda müharibə veteranlarına 80 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdü verilir.



# İki sosial xidmət müəssisəsində nöqsanlar aşkarlanıb

***Ombudsman Aparatı iki sosial xidmət müəssisəsində çatışmazlıqlar aşkarlayıb.***

"Unikal" xəbər verir ki, bu, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb.

Qeyd olunub ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinə əvvəlcədən xəbərdarlıq etmədən keçirilən monitorinq zamanı ahıllar üçün yaradılmış şəraitin müyəssərliyi, qidalanma, sosial-məişət və tibbi xidmətlərə çıxış imkanları, habelə asudə vaxtlarının səmərəli təşkili məsələləri araşdırılıb, yaşayış yerlərinə baxış keçirilib. Əvvəlki monitorinqlər və başçəkmələrdə müəyyən olunan nöqsanların bir çoxunun həll olunması müşahidə edilsə də, müəyyən problemlərin mövcudluğu aktual olaraq qalır.

Bundan öncə müəssisədə ahıllara xidmət göstərən personalın çatışmaması, ştat cədvəli üzrə sosial xidmətçi vəzifəsində vakant yerlərin olması faktı aşkarlanıb. Məsələ müəssisənin rəhbərliyi qarşısında qaldırılmış və bir çox vakant yerə işçi qüvvəsi cəlb olunmuş, ahıllara həm gündüz, həm də gecə saatlarında qulluqla bağlı problem aradan qaldırılıb.

Bununla belə, müəssisənin ştat cədvəlinə uyğun olaraq, Sosial xidmətin təşkili şöbəsində 9 iş yeri, habelə bir psixoloq və iki həkim-terapevt vəzifələri vakant olaraq qalır. Bu səbəbdən ahılların sosial-psixoloji reabilitasiyasına yönəlmiş tədbirlərin, həmçinin tibbi müayinələrin az hallarda həyata keçirildiyi müşahidə edilib.

Həmin müəssisədə ümumi vəziyyətin qənaətbəxş olduğu, lakin yataq xəstələri olan otaqlarda siqnal düymələrinin olmadığı, otaqların qapılarının bəzilərinin nasaz olduğu, bəzi otaqlarda süni işıqlandırmanın ümumi qəbul olunmuş texniki normalara uyğun gəlmədiyi, avadanlığın yenilənməsinə və müəssisənin əsaslı təmirə ehtiyacı olduğu müəyyən edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyinin Göygöl rayonundakı 3 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinə başçəkmə zamanı ümumilikdə qeydə alınan 122 nəfər sakinin 10 nəfərinin ahıl şəxs olduğu, Gəncə şəhərindəki 4 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsində isə ümumilikdə qeydə alınan 103 nəfər sakinin 6 nəfərinin ahıl şəxs olduğu müəyyən olunub.

Hər iki müəssisədə keçirilən başçəkmələr zamanı bir sıra çatışmazlıqlar aşkar edilib, o cümlədən müəssisələrin profilinə uyğun olaraq sakinlərə keyfiyyətli sosial və tibbi xidmətlərin göstərilməsi üçün zəruri olan bir neçə vəzifənin vakant olması nəzərə alınaraq, məsələnin həlli ilə bağlı müvafiq nazirlik qarşında məsələ qaldırılıb.

Ümumilikdə, ahılların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısının alınması, ehtiyacı olan ahıllara sosial xidmətin göstərilməsi səviyyəsinin artırılması məqsədilə aidiyyəti dövlət qurumlarına müvafiq müraciətlər edilib.

# "50 faizə qədər insan icbari tibbi sığortadan faydalanmır" - Deputat

***"Prezident seçkilərində namizəd kimi görüşlərin birində icbari sığortadan faydalanan insanların sayını bilmək üçün 400 nəfərlik salona müraciət etdim. Dedim ki, kimlər bu hüquqdan faydalana bilib? 400 nəfərdən cəmi 11-i əlini qaldırdı".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İnsan hüquqları komitəsinin bu gün keçirilən iclasında komitə sədri Zahid Oruc deyib.

"Bir çoxları dedi ki, işləmirəmsə, icbari sığortadan necə faydalana bilərəm? Dövlətin 2,8 milyard manat vəsaiti buna yönəlib. 50 faizə qədər insan bu sığortadan faydalanmır. Vətəndaş bu hüququnu bilmirsə, müvafiq qurumlar maarifləndirməni nə zaman gerçəkləşdirəcək?", - deyə komitə sədri bildirib.

# Aslan Cəfərovun sirli gəlişi, müəmmalı gedişi

## Sabiqlərin izi ilə: keçmiş deputat və biznesmen niyə 9 ildir ortalarda görünmür?

***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz Milli Məclisin cəmi bir çağırış üzvü olmuş Aslan Cəfərov haqqındadır.***

2010-cu ildə hələ 37 yaşında ikən 77 saylı Astara seçki dairəsindən mandat qazanan A.Cəfərov həmin vaxtadək biznes fəaliyyəti ilə məşğul olmuşdu. İctimaiyyət arasında demək olar ki, tanınmayan gənc millət vəkilinin bu karyera yüksəlişi təəccüb doğurmuşdu.

Lakin Cəfərovun deputatlıq macərası vur-tut 5 il sürdü. 2015-ci ildə keçirilən parlament seçkiləri zamanı o, 5 il öncə mandat qazandığı YAP-ın namizədlər siyahısından kənarda qaldı. Bunun səbəbini həmin vaxt yerli media Aslan müəllimin sabiq vitse-premyer Abbas Abbasovla yaxınlığı ilə izah edirdi. Bildirilirdi ki, onlar arasında qohumluq əlaqələri var. Beləcə, Cəfərovun karyera yüksəlişinin səbəbi də ortaya çıxmışdı.



Deputat mandatını itirdikdən sonra A.Cəfərov ortalarda, demək olar, görünməyib. Obrazlı desək, 2015-ci ildən bəri 9 ildir ki, qeybə çəkilən eks-millət vəkilinin hazırda haralarda olduğu və nə iş gördüyü bəlli deyil. Milli Məclis üzvü seçilməzdən öncə biznes fəaliyyəti ilə məşğul olmuş Cəfərovun həmin fəaliyyətinə geri dönməsi istisna olunmur.

Aslan müəllimin adı sonuncu dəfə medianın gündəminə 2022-ci ildə gəlib. Həmin vaxt məlumat yayılmışdı ki, Dövlət Vergi Xidməti Bakı şəhər Lokal Gəlirlər Baş İdarəsi sabiq deputat, biznesmen Aslan Cəfərova məxsus uşaq qidaları idxal edən "Diplomat-I" firmasını məhkəməyə verib.

Bildirilirdi ki, firmanın 44 min manat vergidən yayındığı üzə çıxıb. Hazırda işə Bakı Kommersiya Məhkəməsində hakim Fərrux Qasımovun sədrliyi ilə baxılır.

O da aydınlaşmışdı ki, 2008-2010-cu illərdə "Diplomat-I" firmasının kommersiya direktoru Aslan Cəfərov olub. Deputat mandatı qazandıqdan sonra isə firmanın qanuni təmsilçiliyi onun atası Məmmədhüseyn Cəfərova ötürülüb. Yayılan məlumatlarda bu da vurğulanırdı ki, adıçəkilən firmanın ən məşhuru brendi "Hipp" qidalarıdır.

""Diplomat-I" firması Avstriya və Almaniyadan Azərbaycana uşaq qidalarını gətirməklə məşğuldur. Bu qidaların arasında ən məşhuru "Hipp" qidalarıdır. "Diplomat-I" firması "HiPP Avstriya " şirkətinin Azərbaycandakı rəsmi nümayəndəsidir" deyə yerli KİV yazırdı.

Qeyd edilirdi ki, sabiq deputatın atası Cəfərov Məmmədhüseyn Abutalıb oğlu 1942-ci ildə anadan olub. Bir neçə il əvvəl Məmmədhüseyn Cəfərovun adı Nizami küçəsində ("Torqoviy") yerləşən mənzilinə oğruların girməsilə gündəmə gəlib.

Məlumatlardan o da aydın olurdu ki, Məmmədhüseyn Cəfərov "Diplomat-I" Firmasından başqa 2013-cü ildə dövlət qeydiyyatına alınan "Bakı Logistika Mərkəzi" MMC-nin də rəhbəridir.

2017-ci ildə "Paşa Bank" ASC kredit borclarını ödəmədiyi üçün "Bakı Logistika Mərkəzi" MMC, "Diplomat-I" firması, Cəfərov Məmmədhüseyn Abutalıb oğlu və Cəfərova Vüsalə Vahidovnaya qarşı məhkəmə iddiası qaldırıb.

Aslan Cəfərovun özünə gəlincə, onun tərcümeyi-halında kifayət qədər maraqlı məqamlar diqqət çəkir. Belə ki, 1973-cü ildə Bakıda dünyaya gəlmiş eks-millət vəkili Azərbaycan Dövlət İqtisad Universitetinin İstehsalın iqtisadiyyatı və idarə edilməsi fakültəsini bitirib. İqtisadiyyat üzrə fəlsəfə doktoru olan sabiq deputat biznesdən məmurluğa doğru da yol keçib. Belə ki, vur-tut 19 yaşında «Areal» Məhdud Məsuliyyətli Cəmiyyətinin vitse-prezidenti işlədikdən sonra cəmi 22 yaşında, 1995-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Katibliyində və İşlər İdarəsində mütəxəssis vəzifəsinə gətirilib. Bunda da o vaxtlar Baş nazirin müavini olan Abbas Abbasovun həlledici rol oynadığını güman etmək mümkündür.

A.Cəfərov 1998-ci ildən isə Azərbaycan Respublikası Ticarət Nazirliyinin Xarici departamentində aparıcı mütəxəssis, Ticarət, məişət və digər növ xidmət sahələrində qaydalara nəzarət üzrə dövlət müfəttişliyinin baş mütəxəssisi, şöbə müdiri, 2002-ci ildən İqtisadi İnkişaf Nazirliyinin Ekspertiza Mərkəzi direktorunun müavini, 2007-ci ildən isə o vaxtkı İqtisadi İnkişaf Nazirliyi yanında İstehsal Bazarına Nəzarət üzrə Dövlət Xidməti rəisinin müavini vəzifələrində çalışıb.

Məmur fəaliyyətinin ardınca biznesə qayıdan Aslan Cəfərov cəmi bir neçə il sonra bu dəfə millət vəkili seçilərək karyerasında yeni səhifə açıb.

Lakin bu səhifə cəmi 5 ildən sonra qapanıb, o vaxtdan bəri isə sabiq deputatdan, yuxarıda da vurğuladığımız kimi, heç bir səs-soraq yoxdur.

***Toğrul Əliyev***

# Azərbaycanda daha bir qaranlıq qazanc yeri...

## Su filtrlərinin satışı ilə məşğul olan şirkətlərin ünvanına şok ittihamlar!

***Yola salmaqda olduğumuz həftə Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya və Aqrar siyasət komitələrinin birgə təşkilatçılığı ilə "Ölkənin su təsərrüfatı: problemlər və yeni çağırışlar" mövzusunda dinləmə keçirilib. Müzakirələr zamanı deputat Naqif Həmzəyev su filtrləri ilə bağlı məsələyə toxunub.***

Onun sözlərinə görə su filtrlərinin standartlara cavab verib-vermədiyi sual altındadır: "Bazarda hər qiymətə su filtri var. Onsuz da biz ölü su içirik. Üstəgəl, filtrlərə aldanaraq, guya, təmiz su içdiyimizi düşünürük. Amma bu, təmiz su deyil. Filtrlərlə bağlı xüsusi sertifikasiya həyata keçirilməlidir, əks halda biz özümüzü aldada-aldada pis halla üzləşəcəyik".



"Azad İstehlakçılar" İctimai Birliyinin sədri Eyyub Hüseynov da məsələyə münasibət bildirib. O, demokrat.az-a açıqlamasında bazarda su filtri satışı ilə məşğul olan 20-ə qədər şirkətin olduğunu deyib: "Uzun müddətdir bu şirkətlər insanları aldadır, kəndlərdə, ucqar yerlərdə, hətta fermalarda öz məhsullarını satır, müxtəlif yalan vədlər verir. Xüsusi treninq keçmiş şəxslər bu işə cəlb olunur, xüsusən də xanımlar. Əvvəlcə deyirlər ki, "Azərsu"dan gəlmişik, suyu monitorinq edirik, içdiyiniz su çirklidir və s. sözlərlə insanları inandırırlar. Bu cür şirkətlərin əksəriyyəti sertifikatlaşdırılmamış filtrlər satır, cəmi ikisi-üçü yerli yoxlamadan keçib, mənşə sertifikatına və yoxlamadan keçməklə bağlı sertifikata malikdir. Əksəriyyəti isə xüsusilə Çindən gətirilmiş sertifikatlarla işlərini davam etdirir. Bu cür firmaların adlarını da çəkə bilərəm - "My filtr", "KAZİMOFF Group" firmaları, Cəlilabadda yerləşən İran mənşəli saxta filtrlər satan şirkətlər. Saxta sertifikatsız filtrlərin satış mərkəzi isə "Sədərək" ticarət mərkəzində yerləşən "Şirniyyat" bazarıdır. Adını çəkdiyim firmalardan bizə şikayətlər daxil olub. Cəlilabadda yerləşən firmalardan biri isə şəhid ailəsini aldadıb televizor hədiyyə edəcəyini vəd etmişdi, ailənin 1000 manat pulunu alıb, üstəlik, kredit borclarının yaranmasına da səbəb olmuşdu. Təəssüf ki, bu bazara nəzarət etməli olan orqanlar yalnız müşahidəçi mövqeyindədir..."

"Unikal" xatırladır ki, hələ bir neçə il öncə su filtrləri ilə bağlı vətəndaşların İqtisadiyyat Nazirliyinə ünvanladığı şikayətlərin sayca az olmadığı açıqlanmışdı. Həmin vaxt qurumun mətbuat xidmətindən bildirilmişdi ki, sözügedən sahədə fəaliyyət göstərən çoxlu şirkətlər, mağazalar var. Lakin keyfiyyətli mal əldə etmək istəyən vətəndaşların su filtrləri alarkən ixtisaslaşmış firma mağazalara müraciət etmələri tövsiyə edilir: "Satışa çıxarılan malların keyfiyyət göstəricilərinin qeyd edildiyi sertifikat olur. Alıcı bunu mütləq şəkildə tədqim etməlidir. Əgər filtrlərin uyğunluq sertifikatı varsa, deməli, onların keyfiyyəti araşdırılıb, standartlara uyğun olduğu üçün də sertifikat verilib. Sertifikat yoxdursa, demək o malın keyfiyyətinə kimsə zəmanət verə bilməz. Kustar üsulla hazırlanıbsa, belə qurğuya heç kəs zəmanət vermir. Su filtrləri alan şəxs onların komplektliyinə də diqqət etməlidir. Hər bir istehlakçı bilməlidir ki, satış üçün təqdim olunan analoji mal nümunələri ticarət zalında yerləşdirilibsə, onların üzərində malın adı, markası, modeli, qiyməti olan yarlığı, habelə malların texniki xüsusiyyətlərini əks etdirən qısa annotasiyası olmalıdır. Alıcı malı alarkən istehsalçı tərəfindən hazırlanmış texniki pasport və ya onu əvəz edən sənədi, satış yeri və tarix göstərilməklə, istismar üzrə təlimat və sair sənədləri də almağı unutmamalıdır . Satıcı isə istehlakçının malın keyfiyyətinə dair bütün tələblərinə cavab verməyə borcludur".

Bundan başqa, 2 il öncə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bu quruma su filtrlərinin səyyar satışını həyata keçirən şirkətlərlə bağlı daxil olan istehlakçı müraciətlərinin sayında artım olduğunu açıqlamışdı. Dövlət Xidməti bəyan etmişdi ki, kütləvi informasiya vasitələrində də su filtrlərinin satışı ilə məşğul olan subyektlərlə bağlı müxtəlif fikirlər səsləndirilir. Sitat: "Su filtrləri ilə bağlı müraciətlər əsasən Bakı ətrafı qəsəbələr və regionlardan daxil olur, bu zaman təhrif edilmiş informasiyalarla istehlakçıların aldadılması hallarına rast gəlinir.

İstehlakçılar məhsulu istənilən satış nöqtəsindən, ticarət obyektindən və ya səyyar qaydada əldə edə bilərlər. Səyyar qaydada adətən, istehlakçılara konkret məhsul təklif edilir ki, belə olan halda, istehlakçının müqayisəli şəkildə uyğun qiymətə və uyğun keyfiyyətdə məhsulu əldə etmək imkanı məhdudlaşır.

Dövlət Xidməti istehlakçılara su filtri alan zaman müxtəlif bazar subyektlərinin təklif etdiyi qiymətləri müqayisə etməyi, şişirdilmiş qiymətlərlə su filtri satan şirkətlərin reklamlarına aldanmamağı, alqı-satqı prosesində ödəniş sənədlərini tələb etməyi, şirkət tərəfindən təqdim olunmuş müqaviləni diqqətlə oxumağı tövsiyə edir".

Belə görünür ki, su filtrlərinin satışını həyata keçirən şirkətlərin fəaliyyəti ilə bağlı şikayətlər uzun illərdir gündəmdə olsa da, bu problem öz aktuallığını qoruyub saxlayır. O da şübhə doğurmur ki, aidiyyatı qurumlar məsələyə daha sərt şəkildə müdaxilə etməyəcəyi təqdirdə biz sözügedən mövzuda narazılıqları hələ çox eşitməli olacağıq. Problemin artıq deputatlar tərəfindən dilə gətirilməsi də dediklərimizin sübutudur.

***Sənan Mirzə***

# "Onları məcburi müalicəyə göndərmək lazımdır" - Tahir Kərimli



***"Bizdə təcridxanaların, eyni zamanda cəzaçəkmə müəssisələrinin böyük hissəsi narkomaniyadan əziyyət çəkən məhkumlarla və yaxud istintaq altında olanlarla doludur. Onlar sıxlıq yaradır. Diqqəti buna yönəltmək lazımdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin İnsan hüquqları komitəsinin bu gün keçirilən iclasında deputat Tahir Kəriumli deyib.

Deputat qeyd edib ki, dövlət bu şəxslərə nə qədər vəsait sərf edir: "Həmçinin, bunların şəxsiyyəti korlanır. Onların şəxsi taleyində məhkumluq yaranır. Onları həbsxanaya doldurmaqdansa, məcburi müalicəyə göndərmək lazımdır. Prokurorlar, müstəntiqlər, təhqiqatçılar və məhkəmələr bu işə baxmaqdan yorulublar".

***Anar Kəlbiyev***

# Sənədsiz evlər qeydiyyata alınmağa başlaya bilər



***Sənədsiz evlərin inventarlaşdırılması təklif edilir.***

"Unikal"ın məlumatına görə, bu barədə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb.

Məruzədə qeyd edilir ki, Ombudsman əvvəlki illik məruzələrində ötən əsrin ortalarından etibarən Bakı şəhərində, onun ətrafındakı qəsəbə və kəndlərdə, o cümlədən, birgə təsərrüfatlara (sovxozlara) məxsus ərazilərdə müxtəlif şəxslər tərəfindən zəbt edilmiş torpaq sahələrində qanunsuz tikilmiş evlərin, habelə bələdiyyələr tərəfindən fərdi ev tikintisi üçün verilmiş torpaq sahələrində inşa olunmuş evlərin inventarlaşdırılması və dövlət qeydiyyatına alınması, eyni zamanda həmin ərazilərdə və yeni yaşayış massivlərində daşınmaz əmlak və nəqliyyat infrastrukturu obyektlərinə ünvanların verilməsini təklif edib.

# Yeni tələbə yataqxanaları tikilsin - Ombudsman

***Yeni tələbə yataqxanalarının inşası təklif edilir.***

"Unikal"ın məlumatına görə, bu barədə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb.

Məruzədə dövlət ali və orta ixtisas təhsili müəssisələrində dövlət sifarişli yerlərin sayının artırılması, ehtiyaca uyğun olaraq, yeni tələbə yataqxanalarının inşa edilməsi istiqamətində aparılan işlərin davam etdirilməsi təklifi əksini tapıb.

Həmçinin Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş, habelə "Dövlət qulluğu haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş təhsil almaq hüququnun və yaradıcılıq azadlığının, həmçinin elmi və yaradıcılıq fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin dövlət qulluğu və dövlət qulluğunun xüsusi növlərində çalışan şəxslərə elmi dərəcələr verilməsinin məqsədəuyğun hesab edilməməsi barədə 2000-ci il 19 may tarixli qərarının ləğv edilməsi təklif edilir.

# Eyni gündə 2 gənc intihar edib

***Ötən gün Azərbaycanda 2 gənc intihar edib.***

"Unikal" xəbər verir ki,hadisələrdən biri Xırdalan şəhərində qeydə alınıb. Belə ki, Abşeron Gənclər Şəhərciyində yaşayan 1995-ci il təvəllüdlü Emil Elşad oğlu Həsənov özünü mənzildə asıb. Onun meyitini yaxınları aşkar ediblər.

Oxşar hadisə Şəmkirdə də baş verib. Rayonun Aşağı Seyfəli kənd sakini, 2000-ci il təvəllüdlü Elnur Səhiyyəddin oğlu Camalov yaşadığı evdə özünü asaraq həyatına son qoyub.

Hər iki faktla bağlı araşdırma aparılır.

08_27 IYUl-QARA.qxd 3/1/2024 4:17 PM Page 11





## Şəxsiyyət vəsiqəsi ilə bağlı qanuna dəyişiklik təklif olunur

***Şəxsiyyət vəsiqəsi ilə bağlı qanuna dəyişiklik edilməsi təklif edilir.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb.

Məruzədə doğum haqqında şəhadətnaməsi olmadığı üçün şəxsiyyət vəsiqəsi ala bilməyən və ya şəxsiyyət vəsiqəsi olmadığı üçün təkrar doğum haqqında şəhadətnamə ala bilməyən yetkinlik yaşına çatmış vətəndaşların bu sahədə hüquqlarının təmini məqsədilə "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə"nin 2.2.2-ci maddəsinin yeni redaksiyada (vətəndaşın doğum haqqında şəhadətnaməsi (16 yaşına çatmış şəxsin doğum haqqında şəhadətnaməsi olmadıqda şəhadətnamədə qeyd olunan məlumatlar sorğu əsasında müvafiq icra hakimiyyəti orqanından alınır)) verilməsi təklif edilir.

## Hərbçilərə 20 günlük məzuniyyət verilsin

***Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına bir dəfə verilən qısa müddətli məzuniyyətin artırılması təklif edilir.***



"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb.

"Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına bir dəfə verilən qısa müddətli 10 günlük məzuniyyətin, hər birinin müddətinin 10 gün olmaqla 2 dəfə verilməsi təklif edilir.

***Anar Kəlbiyev***

## Yaşa görə pensiya alanların sayı açıqlandı

***2024-cü ilin yanvar ayında yaşa görə pensiya alanların sayı 708 min nəfərdən çox olub.***

Bu barədə "Unikal"a Dövlət Sosial Müdafiə Fondundan xəbər verilib.

Onların 42,1%-ni kişilər, 57,9%-ni isə qadınlar təşkil edib.

# Rusiyada 100 milyon dollara 3 sanatoriya tikmək istəyən azərbaycanlı...

***O kimdir - sabiq icra başçısının qardaşı, biznesi ilə məşhur olan keçmiş deputat, yoxsa tamamilə başqa biri?***

Azərbaycan şirkəti Rusiyanın Jeleznovodsk xüsusi iqtisadi zonasında üç sanatoriyanın tikintisinə 9 milyard rubl (100 milyon dollar) sərmayə qoymağı planlaşdırır. Bunu Jeleznovodsk xüsusi iqtisadi zonasının rəhbəri Yevgeni Bakulin bildirib (yeniavaz.com).

"İnvestorlar yenidən Jeleznovodsk xüsusi iqtisadi zonasına maraq göstəriblər. Azərbaycanlı investor ümumi sahəsi 9 hektar olan üç torpaq sahəsi üçün müqavilə bağlayıb. İnvestisiyaların həcmi təxminən 9 milyard təşkil edəcək", - deyə Bakulin bildirib.

Onun sözlərinə görə, həmin ərazidə 600 otaq və 1200 çarpayılıq üç sanatoriyanın tikintisi nəzərdə tutulub.

Qeyd edək ki, Bakulin investorun kimliyini açıqlamayıb.

Məlumat üçün bildirək ki, daha əvvəl də Jeleznovodsk xüsusi iqtisadi zonasında Azərbaycan sərmayəsi ilə sanatoriyalar inşa olunub.

"Unikal" xatırladır ki, iki il öncə isə Rusiyanın Jeleznovodsk şəhərində Qafqaz Mineral Sularının ən böyük kurortlarından biri olan beşulduzlu "İstoçnik Jeleznovodsk" sağlamlıq kurortunun açıldığı barədə xəbər yayılıb. Bu barədə şəhər administrasiyasının mətbuat xidməti məlumat yayıb.

Sanatoriya üç il ərzində şəhərin mərkəzindəki yarıqəzalı binaların yerində tikilib. Yataq tutumu 500 çarpayıya qədərdir. Layihəyə qoyulan ümumi investisiyanın həcmi 2 milyard rubl qiymətləndirilir.

Stavropol qubernatorunun mətbuat xidmətinin məlumatına görə, sanatoriya xarici investisiyalar hesabına tikilib - layihəni Azərbaycandan olan şirkətlər həyata keçirib. Açılışda layihənin investoru sabiq deputat, azərbaycanlı biznesmen Əsabil Qasımov iştirak edib.



O da bildirilib ki, sanatoriya müasir müalicəvi və spa avadanlığı ilə təchiz olunub. Sanatoriya kompleksinin müxtəlif istirahət infrastrukturu təchiz edilib. Sanatoriya geniş spektrli xroniki xəstəliklərin müalicəsini həyata keçirəcək. Burada mədə-bağırsaq traktının, dəstək və hərəkət orqanlarının, tənəffüsün, metabolik pozğunluqların və s. müalicə olunacaq. Bundan əlavə, klassik və innovativ balneoterapiya və palçıq terapiyasının tətbiqi nəzərdə tutulur.

Əsabil Qasımov daha əvvəl - 2016-ci ildə isə Yessentukidə 1.5 milyard rubl investisiya hesabına 400 yerlik "İstoçnik" sanatoriyasını açmışdı.

Lakin sadalananlar sabiq deputat və biznesmenin Rusiyada sanatoriya sahəsinə yatırdığı investisiyaların hamısı deyil. Bir neçə il öncə o, bu dəfə Kislovodskdakı köhnə "Voronej" sanatoriyasına müştəri çıxmış və auksionda ona 356,3 milyon rubl, yəni 6,5 milyon dollar təklif etmişdi.

Müştəri qismindəisə Əsabil Qasımovaun Stavropoldakı EKSPO MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ (OOO "Gkspo") auksionda iştirak etmişdi. Həmin vaxt bildirilirdi ki, bu şirkət 17 fevral 2017-ci ildə Rusiya Federal Vergi Xidmətinin Stavropol diyarı üzrə 1 saylı vergi müfəttişliyində qeydiyyatdan keçib.

Təsisçiləri Əsabil Qasımovun "Karmen" Məhdud Məsuluyyətli Cəmiyyəti (8 000 rubl və ya 80%) və deputatın digər şirkəti Aqros MMC-dir (OOO "AQROS", 2 000 rubl və ya 20%).

"Voronej" sanatoriyası 2015-ci ilin iyunundan satışa çıxarılmış, lakin əvvəlki iki hərracda ona müştəri tap0ılmamışdı.

100 nəfərlik qonaq tutumu olan sanatoriyanın 2017-ci ildə xalis gəliri cəmi 918 min rubl təşkil etmişdi. Bu o deməkdi ki, həmin göstəricilərlə deputat sanatoriyaya yatırdığı investisiyanı 388 ilə geri qaytaracaq. Ona görə də bəziləri bunu "tarixin ən bərbad investisiya layihələrindən biri" adlandırmışdıl.

Onu da qeyd edək ki, 2017-ci ildə keçirilən Rusiya-Azərbaycan regionlararası forumu çərçivəsində Kislovodsk şəhərində "Rusel" sanatoriyasının tikintisi ilə bağlı müqavilə imzalanıb. Həmin sanatoriyanı isə Gəncə şəhər İcra Hakimiyyətinin sabiq başçısı Elmar Vəliyevin qardaşı Şahmar Vəliyevin Rusiyanın Yesentuki şəhərində təsis etdiyi "Rusel" şirkəti inşa etmişdi.

Jeleznovodsk xüsusi iqtisadi zonasında üç sanatoriyanın tikintisinə 9 milyard rubl (100 milyon dollar) sərmayə qoymağı planlaşdıran azərbaycanlının kimliyi açıqlanmasa da, ötən illərin təcrübəsindən çıxış edərək bəzi ehtimallar irəli sürmək mümkündür. Ola bilsin həmin investor ya yuxarıda adını çəkdiyimiz sabiq deputat, ya da keçmiş icra başçısının qardaşıdır.

Hətta bu da mümkündür ki, haqqında danışılan azərbaycanlı sərmayəçi tamamilə başqa bir şəxsdir.

İstənilən halda, sözügedən investorun kimliyinə qarşıdakı dönəmdə aydınlıq gələcəyi istisna olunmur.

# Ötən ilin Yevlax şəhəri üzrə əmtəə bazarı statistikası

***2023-cü ildə pərakəndə ticarət dövriyyəsinin həcmi 525047,8 min manat olmuş və keçən illə müqayisədə faktiki qiymətlərlə 5,2 faiz artmış, müqayisəli qiymətlərlə isə 3,6 faiz azalıb.***

2023-cü ildə ölkə üzrə pərakəndə ticarət dövriyyəsində Yevlax rayonu üzrə pərakəndə ticarət dövriyyəsi 0,89 faiz təşkil etmişdir.

2024-cü il yanvar ayının 1-i vəziyyətinə 150 fərdi sahibkarın və 410 fiziki şəxsin məşğul olduğu 9200 kv.m sahəsi olan 560 yerinə malik ərzaq və qeyri ərzaq malları bazarı fəaliyyət göstərir.

Pərakəndə ticarət dövriyyəsinin quruluşunda ərzaq malları, içkilər və tütün məmulatlarının xüsusi çəkisi 54,4 faiz, və ya 285801,7 min manat, qeyri-ərzaq mallarının xüsusi çəkisi 45,6 faiz, və ya 239246,1 min manat olmuşdur.

2023-cü il ticarət şəbəkəsindən rayonun hər bir sakini orta hesabla 3754,0 manat və ya keçən illə müqayisədə 164,36 manat çox istehlak malları almışdır.



2023-cü ildə hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fiziki şəxslər tərəfindən keçən illə müqayisədə əhaliyə faktiki qiymətlərlə 5,3 faiz çox, müqayisəli qiymətlərlə isə 3,4 faiz az istehlak malları satılmışdır.

2023-cü ilin hesabat dövründə pərakəndə satışın 9,2 faizini (48376,1 min manatını) rəsmi qeydiyyatdan keçmiş müəssisələr, 45,8 faizini (240507,4 min manatını) bazar və yarmarkalar, 45,0 faizini (236164,3 min manatını) isə fiziki şəxslər təşkil etmişdir.

2024-cü il yanvar ayının 1-i tarixinə ticarət şəbəkə və anbarlarında əhalinin tələbatını təmin etmək üçün 23783,9 min manatlıq mal ehtiyatları olmuşdur.

Pərakəndə mal ehtiyatlarının 3087,8 min manatı rəsmi qeydiyatdan keçmiş müəssisələrin, o cümlədən 3078,4 min manatı iri, orta və kiçik müəssisələrin, 9,4 min manatı mikro müəssisələrin, 20696,1 min manatı hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların şəbəkələrində və anbarlarında olmuşdur.

***Hazırladı,***
***Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi***
***Mehriyyə Vəliyeva***

08_27 IYUl-QARA.qxd 3/1/2024 4:17 PM Page 12



**5.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Multikulturalizm məkanı sayılan Azərbaycan

## Məhəmməd Noayev: “Azərbaycanda heç bir dini konfessiyanın birinin digərindən üstünlüyü yoxdur”

***Azərbaycanda multikulturalizmin və dini tolerantlığın dövlət siyasəti səviyyəsində inkişafı ölkənin qədim dövlətçilik tarixinə əsaslanır. Deməmk olar ki, dini tolerantlıq ənənəsi Azərbaycan xalqının ən qiymətli dəyərlərindən biridir. Multikulturalizm məkanı sayılan Azərbaycan tolerantlığı, dözümlülüyü ilə dünyaya örnəkdir.***



Azərbaycanın dünyaya təqdim etdiyi tolerantlıq modeli dünya dövlətləri tərəfindən rəğbətlə qarşılanır. Hətta ölkəmizin tolerantlıq modeli nümunə kimi də tətbiq edilir. Azərbaycanın tolerantlıq modelinin əsrlərə dayanan tarixi kökləri var. Hələ qədim dövrlərdən ulu babalarımız birgəyaşayışı öz həyat tərzinə çeviriblər. Azsaylı xalqlarla sülh şəraitində, mehriban yaşayış Azərbaycan xalqının qədimdən gələn milli dəyərləridir. Ölkəmizdə kiminsə dini əqidəsinə, milli mənsubiyyətinə görə təzyiqə məruz qalması faktı yoxdur. Dini və milli ənənələri olan Azərbaycanda yaşayan hər bir xalqın inancına, milli mənsubiyyətinə hörmətlə yanaşılır, onlara dəyərlərinin qorunub inkişaf etdirilməsinə şərait yaradılır.

Bununla belə qloballaşan dünyada milli-mənəvi dəyərlər, mədəni fərqliliyin qorunub-saxlanması və gələcək nəsillərə ötürülməsi vacib olduğu qədər də çətindir. Multikulturalizm məkanı sayılan Azərbaycan tolerantlığı,dözümlülüyü ilə bərabər, özünəməxsus mədəniyyəti ilə dünya ictimaiyyətinin nəzərini cəlb edir.

Azərbaycan-Avar İctimai Birliyinin sədri Məhəmməd Nooyev “Unikal” qəzetinə müsahibəsində bildirib ki, Azərbaycan əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəratində yaşadığı diyar kimi tanınıb.

“Ölkəmizdə multikulturalizm adlandırdığımız sosial münasibətin mövcudluğu və davamlılığını şərtləndirən dinc birgəyaşayış ənənəsini, tolerantlıq, qarşılıqlı hörmət və ehtirama söykənən köklü münasibətləri bütün dövrlərdə görə bilərik. Xalqımızın zəngin multikultural keçmişi təkcə onun bugünki tolerant yaşam tərzində deyil, həm də yaratmış olduğu ədəbi-bədii, elmi fəlsəfi, siyasi-hüquqi qaynaqlarda, sənədlərdə yaşayır. Ölkəmizdə multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində təbliğinin əsaslarını ölkənin tarixi və bu ənənələrin inkişafı təşkil edir. Bu gün Azərbaycanda yaşayan müsəlman, xristian və yəhudilər, eyni zamanda digər dini inanclara sahib insanlar öz ibadətlərini sərbəst şəkildə həyata keçirirlər, tolerant və multikultural cəmiyyətin imkanlarından yararlanırlar. Azərbaycanda heç bir dini konfessiyanın birinin digərindən üstünlüyü yoxdur”.

M. Noayev deyir ki, bir çox xalqlarla müqayisədə Azərbaycan multikulturalizm, tolerantlıq üçün həm əlverişli, həm də müasir dövr üçün olduqca aktualdır. Onun fikrincə, Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi mehribanlıq şəraitində yaşayır və bundan sonra da yaşayacaqlar: “ Azərbaycan ölkə daxilində dinlərarası, millətlərarası münasibətlərin tənzimlənməsində çox böyük uğurlara nail olub və biz bunu bütün dünyaya nümayiş etdirmişik. Bu gün multikulturalizm ənənələri ölkəmizdə özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycanda dini tolerantlıq ənənəsi qorunur və inkişaf etdirilir. Azərbaycanda tarixən müxtəlif məzhəblər və dinlər arasında qarşılıqlı hörmət və həmrəylik mövcud olmuşdur. Azərbaycanda heç vaxt dini və məzhəb zəmində qarşıdurmalar, dini çəkişmələr baş verməmişdir. Bu, onu göstərir ki, Azərbaycanda məzhəblərarası tolerantlığın dərin tarixi kökləri vardır”.

Qeyd edək ki, Azərbaycanda tolerantlıq mühiti hər zaman ən yüksək səviyyədə olduğu üçün burada multikulturalizm, millətlər və dinlər arasında olan münasibətlərə, dialoqa həsr edilmiş beynəlxalq səviyyəli bir çox tədbirlər, elmi konfranslar keçirilir. Dünyanın müxtəlif ölkələrini, dinlərini təmsil edən 200-dən çox nümayəndənin iştirak etdiyi “Qloballaşma, din, ənənəvi dəyərlər” mövzusunda tədbir 2010-cu ilin aprelində məhz Bakı şəhərində keçirilib. Bunu Azərbaycanın beynəlxalq aləmdə tanınması, tolerantlıq mühitinin genişlənməsi və inkişafı ilə əlaqələndirmək olar. 2011-ci ildən başlayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə hər iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bu Forumlar UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, İSESKO, BMT-nin Dünya Turizm Təşkilatının tərəfdaşlığı ilə reallaşdırılır. Respublikamızda dini dözümlülüyün, dini müxtəlifliyin, milli və dini tolerantlığın, multikulturalizmin, milli-mənəvi dəyərlərin inkişafında və təbliğ edilməsində Heydər Əliyev Fondunun əvəzolunmaz xidmətləri vardır. 2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakıda keçirilməsi barədə qərar qəbul edilib. 2016-cı ildə Bakıda Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçirilib. Forumda dünyanın 140-dan çox ölkəsindən nümayəndə heyətləri, çoxsaylı beynəlxalq təşkilatların, dini konfessiyaların, QHT-lərin nümayəndələri iştirak ediblər. BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Azərbaycanda keçirilməsi ölkədə multikultural və tolerant mühitin olmasının göstəricisidir. Multikulturalizmin bu formada geniş təsbit və tətbiq olunması Azərbaycanın dünyaya olan töhfələrindən biridir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Kölndə Xocalı soyqırımının 32-ci ildönümü anılıb

***Xocalı soyqırımının 32-ci ildönümü ilə əlaqədar Almaniyanın Köln şəhərində anım tədbiri keçirilib.***

”Unikal” xəbər verir ki, tədbirdə Almaniyanın Köln, Bonn, Düsseldorf, Troisdorf şəhərlərindən olan soydaşlarımız iştirak edib. Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə keçirilən tədbir Azərbaycanın Dövlət Himni ilə başlayıb. Daha sonra Vətənin ərazi bütövlüyü uğrunda şəhid olanların və Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov tədbir iştirakçılarına Ali Baş Komandan İlham Əliyevin suverenliyimizi tam bərpa etdikdən sonrakı dövrdə diaspor siyasətindəki prioritetləri tədbir iştirakçılarının diqqətinə çatdırıb. Komitə sədri hər il olduğu kimi, bu il də diaspor təşkilatları tərəfindən “Xocalıya Ədalət” beynəlxalq təbliğat və təşviqat kampaniyası çərçivəsində çoxsaylı tədbirlərin həyata keçirildiyini, dünya ictimaiyyətinin məlumatlandırıldığını bildirib. Bir neçə gün öncə Köln Katedralı önündə 200-dən çox diaspor nümayəndəsinin iştirakı ilə baş tutmuş aksiyanı xatırladan Komitə sədri Almaniyada yaşayan soydaşlarımızın Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında həmişə xüsusi fəallıq göstərdiyini vurğulayıb.

Daha sonra Almaniya Azərbaycanlıları Alyansının İdarə Heyətinin sədri Nuran Abdullayev çıxış edərək, Azərbaycanın qan yaddaşı olan Xocalı qətliamının Ermənistan silahlı qüvvələri tərəfindən törədilən insanlıq əleyhinə cinayət aktı olduğunu, bu cinayəti törədənlərin gec-tez beynəlxalq hüquq qarşısında cavab verəcəklərini bildirib.

Tədbir iştirakçılarından Avropa Azərbaycan Mərkəzinin sədri Zaur Əliyev, sədr müavini Sərdar Əliyev, əslən Ağdamdan olan və ailə üzvlərini I Qarabağ müharibəsində itirmiş, “Qarabağ” FK-nin sabiq oyunçusu, hazırda Almaniyada yaşayan həmyerlimiz Vüqar Cəfərov, eləcə də alman tarixçi və musiqişünas Anja Bel, Alman-Azərbaycan Mədəniyyət Evinin həmsədri Altay Rüstəmli çıxış edib, Xocalı faciəsinin ermənilərin zaman-zaman azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı siyasətinin ən acı səhifələrindən biri olduğunu söyləyiblər.

Tədbirin bədii hissəsində Almaniya Azərbaycanlıları Alyansının üzvü Səbinə Məmmədova pianoda, Vahid Məmmədov tarda həzin musiqilər ifa edib.

Sonra erməni vandallarına qarşı döyüşən qəhrəman oğullarımızdan bəhs edən “Oğul” sənədli filmi numayiş etdirilib. Yekunda tədbir iştirakçılarına soyqırımı ilə bağlı məlumatlandırıcı bukletlər və döş nişanları təqdim edilib.

08_27 IYUl-QARA.qxd 3/1/2024 4:17 PM Page 13



# Azərbaycanda xüsusi cəzaçəkmə müəssisəsi yaradılsın



***Təhlükə törətməyən və az ağır cinayət törətmiş 18-24 yaş arası məhkumlar üçün xüsusi cəzaçəkmə müəssisəsinin yaradılması təklif edilir.***

”Unikal” xəbər verir ki, bu, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb.

Ombudsman cəza-icra qanunvericiliyində və digər qanunvericilik aktlarında xüsusi ictimai təhlükə törətməyən və az ağır cinayət törətmiş 18-24 yaş arası məhkumların fərqli rejimdə cəza çəkməsinə imkan verən dəyişikliklərin edilməsi və belə məhkumların cəzasını çəkməsi üçün xüsusi cəzaçəkmə müəssisəsinin yaradılmasını məqbul hesab edib.

# Bu hərbi qulluqçulara şəhid statusunun verilməsi təklif edilir

***Həlak olan bu hərbi qulluqçulara şəhid statusunun verilməsi təklif edilir.***

”Unikal” xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb.

Məruzədə Azərbaycan Respublikasının sülhməramlı kontingentinin tərkibində onun ərazisindən kənarda aparılan sülhməramlı əməliyyatlarda iştirak edərkən həlak olmuş və ya ölmüş elan edilmiş hərbi qulluqçulara şəhid statusunun verilməsi ilə bağlı qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi təklif edilir.

*Anar Kəlbiyev*

# Yataqxanadakı keçmiş məcburi köçkünlər köçürülə bilər



***Hazırda yataqxana və qəzalı binalarda yaşayan məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə onların işğaldan azad edilmiş ərazilərə köçürülən keçmiş məcburi köçkünlər tərəfindən təhvil verilmiş xidməti mənzillərə müvəqqəti olaraq köçürülməsi təklif edilir.***

“Unikal” xəbər verir ki, bu, Azərbaycanın İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb.

Ombudsman hazırda yataqxana və qəzalı binalarda yaşayan məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə onların işğaldan azad edilmiş ərazilərə köçürülən keçmiş məcburi köçkünlər tərəfindən təhvil verilmiş xidməti mənzillərə müvəqqəti olaraq köçürülməsini məqsədəmüvafiq hesab edir.

# Bu həbsxanalarda normadan artıq şəxs saxlanılıb

***Penitensiar müəssisələrdə müəyyən edilən əsas problemlərdən biri də sıxlıqla bağlı olub.***

“Unikal”ın məlumatına görə, bu barədə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb.

İstintaq təcridxanalarında və bəzi cəzaçəkmə müəssisələrində mövcud normadan artıq şəxsin saxlanıldığı halları müşahidə edilib. Belə ki, 2.500 nəfər üçün nəzərdə tutulmuş Bakı İstintaq Təcridxanasında başçəkmələr zamanı limitdən daha çox şəxsin saxlanıldığı müəyyən olunub. Bununla yanaşı, 700 nəfərlik 2 saylı İstintaq Təcridxanasında 800, 1.050 nəfərlik 3 saylı İstintaq Təcridxanasında 1.400 nəfərin saxlandığı, 1.200 nəfər saxlanma limiti olan 2 saylı cəzaçəkmə müəssisəsində isə 1.411 məhkumun cəza çəkdiyi müəyyən edilib.

# Dövlət hesabına verilən dərmanların siyahısı genişləndirilə bilər



***Dövlət hesabına verilən dərmanların siyahısının genişləndirilməsi təklif edilir.***

“Unikal” xəbər verir ki, bu, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) 2023-cü il üzrə məruzəsində əksini tapıb.

Məruzədə hepatit, şəkərli diabet, hemofiliya, talassemiya və bu kimi başqa xəstəliklərdən əziyyət çəkən, xüsusilə aztəminatlı ailələrdən və əhalinin həssas qruplarından olan vətəndaşlarımızın mövcud durumu nəzərə alınaraq, dövlət büdcəsi hesabına verilən dərmanların və digər vasitələrin daha keyfiyyətliləri ilə əvəz edilməsi və siyahısının real ehtiyaclara uyğun genişləndirilməsi təklif edilir.

İxtisaslaşdırılmış tibb müəssisələrində narkotik asılılığından əziyyət çəkən yetkinlik yaşına çatmayan şəxslərin müalicəsinin təşkili məqsədilə isə müvafiq şöbənin yaradılması təklif edilir.

Sağlamlığın qorunması hüququnun effektiv təmin edilməsi məqsədilə bütün tibb xidmətlərinin və xəstəliklərin icbari tibbi sığorta hesabına həyata keçirilməsi təklif edilir.

Bu barədə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsman) 2023-cü il üzrə məruzəsində əksini tapıb.

Məruzədə “Sağlamlıq haqqında tibbi arayış” (digər tibbi arayışlar, işə girmədən əvvəl müayinə, təhsil müəssisələrinə daxil olma ilə bağlı müayinə (18 yaşdan yuxarı), sığorta ilə bağlı müayinə (18 yaşdan yuxarı), inzibati məqsədlərlə digər müayinələr (18 yaşdan yuxarı), 1 ay ərzində təkrar müraciət zamanı (18 yaşdan yuxarı)) tibbi xidmətlərinin Xidmətlər Zərfinə daxil olmayan ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin (№ 3.3.1.338-3.3.1.340 və 43.3.1.342-3.3.1.344) siyahısından çıxarılaraq icbari tibbi sığorta çərçivəsində göstərilən Xidmətlər Zərfinə əlavə edilməsi təklif edilir.

*Anar Kəlbiyev*

# Bu qidalar dərinizə yaxşı təsir edir

***Dəri insan bədəninin xarici təbəqəsini təşkil edən bir toxumadır. Dəriyə qulluq üçün insanların çoxu, nəmləndirici, günəş qoruyucuları və digər dəriyə qulluq məhsulları tətbiq etməklə dərilərinə xarici qulluq göstərə bilərlər. Bununla belə, düzgün qidalanma dəri sağlamlığını qorumaq üçün daha çox fayda təmin edə bilər.***



”Unikal” dəri sağlamlığına kömək edən qidaları təqdim edir:

**1. Qreypfrut**

Qreypfurt dəri hüceyrələrini zədələnmədən qorumağa kömək edən antosiyaninlər adlı birləşmələri özündə ehtiva edir. Araşdırmalara görə, antosiyaninlər antioksidant təsirə malikdir və sızanaq kimi dəri xəstəlikləri olan insanlar üçün çox faydalıdır.

**2. Çiyələk**

Çiyələk C vitamini, antosiyaninlər və fenolik turşular kimi dəri sağlamlığını dəstəkləyən maddələrlə zəngindir. Aparılan araşdırmalar nəticəsində C vitamininin dəri hüceyrələrini zədələnmədən qoruduğu müəyyən edilib. Bir fincan dilimlənmiş çiyələk gündəlik C vitamini ehtiyacınızın 108 faizini təmin edə bilər.

**3. Sümük bulyonu**

Sümük suyu hazırlamaq üçün kollagenlə zəngin heyvan sümükləri, adətən, 8 saatdan çox qaynadılır. Bu zaman dəri sağlamlığını dəstəkləyən jelatin kimi bir maye istehsal edilir. Bir qab sümük bulyonu içmək dərini nəmləndirməyə və hüceyrələrini bərpa etmək və yeniləmək üçün lazım olan amin turşuları ilə təmin etməyə kömək edə bilir.

**4. Qabıqlı dəniz məhsulları**

İstiridyə, krevetka kimi qabıqlı balıqlar dərinin iltihabını azaldılmasında və yaraların sağalmasına kömək edən sink mineralı ilə zəngindir. Bundan əlavə, UV şüalarından qorunmağa kömək edən selenium da bu qidalarda yüksəkdir. 6 orta ölçülü istiridyə istehlak etmək gündəlik sink ehtiyacınızı ödəyir və gündəlik selenyum ehtiyacınızın 30 faizini təmin etmiş olur.

**5. Alabalıq**

Alabalıq D vitamini ilə zəngin olan azsaylı qidalardan biridir. Araşdırmalardan məlum olmuşdur ki, D vitamini dəri hüceyrələrinin böyüməsi və dəri baryerinin formalaşması üçün lazım olan yağda həll olunan qidadır. Bundan əlavə, D vitamini iltihabı tənzimləməyə də kömək edir və bədəni zərərli maddələrdən qorumağa kömək edən immunitet sistemini formalaşdırır.

**6. Brokoli**

Brokolinin tərkibində yüksək miqdarda C vitamini və polifenol antioksidantları var. Polifenollar kollagenin və elastinin parçalanmasında iştirak edən müəyyən fermentlərə manea törədə bilər ki, bu da qocalmanı yavaşlatmağa kömək edir.

**7. Qarpız**

Qarpızın 90 faizdən çoxu sudan ibarətdir, bu da onu dərinizi içəridən nəmləndirmək üçün yaxşı bir seçimdir. Qarpız yaxşı bir C vitamini mənbəyidir və beta-karoten kimi dərini dəstəkləyən antioksidanlara malikdir. Başqa sözlə, o, dəri hüceyrələrini qidalandıraraq, onların daha yaxşı görünməsinə kömək edir.

**8. Gilas**

Araşdırmalar nəticəsində albalının dərini zərərli günəş işığından qorumağa kömək edə biləcək hidroksisinnamik turşu və Flavan-3-ol kimi birləşmələrini özündə ehtiva etdiyi müəyyən edilib.

**9. Pomidor**

Pomidor likopen kimi birləşmələri ehtiva edən bir qidadır. Aparılan araşdırmalarda, pomidorların dərinin qızartısını azaldıb, dərinin görünüşünü və piqmentasiyasını yaxşılaşdırdığını, beləliklə də UV şüalarının səbəb olduğu dəri zədələnməsinin və günəşə məruz qalması səbəbindən dərinin qocalmasının qarşısını aldığı aşkar edilmişdir.

**10. Kimçi**

Kimçi, kələm soğan, turp, yerkökü və xiyar kimi digər maddələrlə hazırlanmış fermentləşdirilmiş məzə növüdür. Bu qida A və C vitaminləri də daxil olmaqla optimal dəri sağlamlığı üçün vacib olan probiotiklər və qida maddələri ilə zəngindir.

*Zərifə Nağıyeva*

08_27 IYUl-QARA.qxd 3/1/2024 4:17 PM Page 14



# MEDİA informasiya sistemlərini tam olaraq "Hökumət buludu"na köçürüb




***"Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanının icrası davam etdirilir.***

"Unikal" xəbər verir ki, fəaliyyət çərçivəsində dövlət qurumlarının informasiya sistemlərinin və ehtiyatlarının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan "AzInTelecom" MMC-yə məxsus Bakı və Yevlax Data mərkəzlərinə tam və ya qismən miqrasiyası həyata keçirilir.

İnformasiya sistemləri və ehtiyatlarını "Hökumət buludu"na köçürən növbəti dövlət qurumu Medianın İnkişafı Agentliyi (MEDİA) olub. Agentlik "Hökumət buludu"na miqrasiya çərçivəsində "AzInTelecom" MMC-nin təqdim etdiyi IaaS (İnfrastructure-as-a-Service) virtual server xidmətini əldə edib. MEDİA informasiya sistemlərini tam olaraq "AzInTelecom" MMC-yə məxsus Bakı Data Mərkəzində yerləşdirməklə kritik sistemlərinin yüksək əlçatanlığını təmin edib.

Eyni zamanda Medianın İnkişafı Agentliyi üçün məlumatların təhlükəsiz saxlanılması məqsədilə BaaS (Backup-as-a-Service) - rezervlənmə bulud xidmətinin göstərilməsi və daha çevik və sadə idarəetmənin təmin olunması ilə əlaqədar olaraq "Veeam" platformasının yaradılması ilə bağlı razılığa gəlinib.

Qeyd edək ki, dövlət qurumlarının "Hökumət buludu"na miqrasiyası ilə cari İT xərcləri azalır və informasiya sistemlərinin məhsuldarlığı artır. Beləliklə, informasiya sistemlərinin təhlükəsizliyinin daha da təkmilləşdirilməsinə, sabit və dayanıqlı İT infrastrukturuna, operativ koordinasiya ilə yüksəkkeyfiyyətli servis təminatı və 24/7 monitorinq xidmətinə nail olunur.

"AzInTelecom" MMC Azərbaycan və Cənubi Qafqaz regionunda "TIER III" Beynəlxalq uyğunluq sertifikatına malik ilk qurumdur. Bundan əlavə, "ISO 20000", "ISO 22301" və "ISO 27001" sertifikatlarının tələblərini ödəyən Bakı və Yevlaxda yerləşən 2 Data Mərkəzinə malikdir.



# Vətəni yaşadan qəhrəman

***İkinci Qarabağ müharibəsində qan töküb Vətəni yaşadan polkovnik-leytenant Mehman Şirvanov qalxdığı şəhidlik zirvəsində ömrünün 44-cü ilinə qovuşdu.***

Axı, şəhidlər heç vaxt ölmürlər. Onlar canını fəda etdikləri Vətənin səmasında parlaq günəşə dönüb milyonların ürəyində sevgi olurlar. Məhz elə buna görə Vətən sevdalısının doğulub boya -başa çatdığı Lənkəran rayonunun Ürgə kənd camaatı, Yeni Azərbaycan Partiyası Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev və təşkilat əməkdaşları məzarını ziyarət edib, önünə gül dəstələri qoyublar. Daha sonra ziyarətçilər şəhidin ata ocağına gəlib İ.Əmənullayev qayğı, sosial problemləri ilə maraqlanıb, təşkilat tərəfindən hazırlanmış hədiyyəni onlara verib.

Həm də bildirilib ki, Vətənin dar günündə dadına çatıb onun yaşaması naminə sinəsini düşmən gülləsinə sipər etmək yalnız mərd, qeyrətli oğlanların işidir. Mehman bu müqəddəs yolda canını qurban verib. Fəqət, Mehman kimi Vətən övladların qəhrəmanlığı, vətənpərvərliyi, qələbə əzmi sayəsində ordumuz qalib gəldi, 30 il yağıya əsir düşən Qarabağımız azad olundu. Odur ki, doğma Azərbaycan var olduqca, Mehman dahim ürəklərdə yaşayacaq, şərəfli həyat yolu da gələn nəsillərə örnək göstərilər.

Uşaq yaşlarından Vətənə, doğma torpağına məhəbbət ruhunda böyüyən Mehman Şirvanov düşməndən qisas almaq məqsədilə hərbi peşəsinə yiyələnib. 1998-2002-ci illərdə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində təhsil alıb. Müxtəlif hərbi hissələrində canından artıq sevdiyi Azərbaycanına nümunəvi, qüsursuz xidmət göstərib. Xidmət dövründə daha da mükəmməl olmaq üçün bir sıra inkişaf etmiş xarici ölkələrdə, o cümlədən Rumıniyada, qardaş Türkiyədə, eləcə NATO tərəfindən təşkil olunan ixtisasartırma kurslarında iştirak edib. Vətənə sonsuz məhəbbətini ilk dəfə Mehman 2016-ci ilin Aprel döyüşlərində göstərib. Ağır müharibə meydanında dığalara qan qusdurub. Vətən müharibəsinin ilk günü qəhrəman zabitin son savaşı olub. Polkovnik-leytenant sentyabrın 27-də Murovdağ yüksəkliyi uğrunda döyüşdə şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra "Qarabağ" ordeninə, "Vətən uğrunda", "İgidliyə görə" medallarına layiq görülüb. Vətənə əmanət qoyduğu Nuray adlı qızı var.

***Zəfər Orucoğlu, AJB üzvü***

# 2023-cü ildə Yevlaxda kənd təsərrüfatı və əhalinin gəlirləri statistikası belə olub

***2023-cü ildə şəhər iqtisadiyyatının əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 12,7 faiz və ya 52014,2 min manat artaraq 410015,1 min manat olmuşdur. Keçən ildə bu göstərici 358000,9 min manat təşkil edib.***

ÜMB-ın 56,3 faizi və ya 230752,0 min manatı istehsal, 43,7 faizi və ya 179263,1 min manatı isə xidmət sahələrində yaranıb. Keçən il istehsal 188203,9 min manat, xidmət isə 169797,0 min manat təşkil edib. Mal və xidmətlərin faktiki qiymətlərlə buraxılışı sənaye sahəsində 26297,5 min manat və ya ümumi məhsul buraxılışının həcmində xüsusi çəkisi 6,4 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq 156990,3 min manat və ya 38,3 faiz, tikintidə 47464,2 min manat və ya 11,6 faiz, ticarət və nəqliyyat vasitələrinin təmiri 168015,3 min manat və ya 41,0 faiz, nəqliyyat və anbar təsərrüfatında 8699,4 min manat və ya 2,1 faiz, informasiya və rabitədə 2548,4 min manat və ya 0,6 faiz olub.

2023-cü ilin məhsulu üçün payızlıq və yazlıq bitkilərin əkin sahəsi 36372,81 hektar və ya 2022-ci ilə nisbətən 4,4 faiz çox payızlıq və yazlıq bitkilər əkilmişdir. Keçən il bu göstərici 34830,7 hektar olub.

2023-cü ilin məhsulu üçün payızlıq və yazlıq bitkilərin əkin sahəsi 36372,81 hektar və ya 2022-ci illə müqayisədə 1542,11 hektar çox payızlıq və yazlıq bitkilər əkilib. 2023-cü ilin məhsulu üçün 8607,73 hektar sahədə payızlıq buğda, 6887,08 sahədə isə arpa səpini aparılmışdır. Əvvəlki illə müqayisədə 1460,73 hektar çox buğda, 1027,08 hektar çox arpa səpini aparılıb. 2023-cü ildə 339,3 hektar qarğıdalı, 510,0 hektar günəbaxan, 35,0 hektar çəltik, 142,3 hektar kartof, 566,0 hektar tərəvəz, 225,0 hektar bostan, 16600,0 hektar çoxillik yem bitkiləri, 3,0 hektar noxud, 28,0 hektar darı, 1888,3 hektar pambıq, 43,3 hektar lobya, 110,7 hektar soya və 386,8 hektar şəkər çuğunduru olmaqla yazlıq bitkiləri əkilib.



2022-ci ilə nisbətən 167,4 hektar qarğıdalı, 6,0 hektar günəbaxan, 4,8 hektar kartof, 32,3 hektar tərəvəz, 3,5 hektar bostan, 3,0 hektar darı, 8,7 hektar lobya, 27,0 hektar çəltik, 20,0 hektar yem bitkiləri çox əkilmişdir. 2022-ci ilə nisbətən 813,9 hektar pambıq, 406,4 hektar şəkər çuğunduru 1,6 hektar soya az əkilmişdir.

2023-cü ilin məhsulu üçün əkin sahələrindən 32020,7 ton buğda, 20661,4 ton arpa, 1568,2 ton kartof, 6470,7 ton tərəvəz, 2962,5 ton bostan, 12061,2 ton meyvə, 346,9 ton giləmeyvə, 255676,0 ton yonca otu, 303,6 ton darı, 7,1 ton noxud, 113,0 ton lobya, 108,8 ton çəltik, 5183,6 ton dən üçün qarğıdalı, 6755,85 ton pambıq, 15018,8 ton şəkər çuğunduru, 84,0 ton soya, 1369,2 ton günəbaxan, 1847,8 ton üzüm istehsal olunmuşdur ki, bu da 2022-ci ilə nisbətən 5719,7 ton buğda, 3257,2 ton arpa, 8,4 ton bostan, 48,8 ton kartof, 283,8 ton yonca otu, 32,7 ton meyvə, 0,4 ton giləmeyvə, 72,3 ton üzüm, 84,0 ton çəltik, 144,2 ton günəbaxan, 38,8 ton darı, 23,4 ton lobya, 3247,7 ton şəkər çuğunduru, 0,2 ton noxud çox, 4752,2 ton qarğıdalı, 1815,95 ton pambıq, 1606,9 ton tərəvəz, 1,6 ton soya isə az tədarük olunmuşdur.

2023-cü ildə barama tədarükü 9650,0 kq olmuşdur ki, bu da 2022-ci ilə nisbətən 165,8 faiz və ya 3831,6 kq çox tədarük olmuşdur. 2022-ci ildə barama tədarükü 5818,4 kq omuşdur. 2023-cü ildə ət istehsalı (diri çəkidə) 9308,5 ton, süd istehsalı 38192,9 ton, yumurta istehsalı 18233 min ədəd, yun isə 357,6 ton olmuş və əvvəlki il ilə müqayisədə ət istehsalı 170,1 ton , süd istehsalı 130,5 ton, yumurta istehsalı 51 min ədəd, yun isə 15,6 ton artmışdır. 01.01.2024-cü il vəziyyətində 78756 baş mal-qara, o cümlədən 32310 baş inək və camışlar, 184313 baş qoyun və keçi, 456870 baş quş olmuşdur.

***Hazırladı,***
***Yevlax Şəhər Statistika İdarəsinin rəisi Saleh Cəfərov***

08_27 IYUl-QARA.qxd 3/1/2024 4:18 PM Page 15



## "Ordu elə bir vəziyyətdədir ki..." - Erməni deputat



***Çoxlu sayda hərbçinin attestasiyadan keçməməsi, qənaətbəxş nəticə alması çox pisdir.***

"Unikal" xəbər verir ki, bunu Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik daimi komissiyasının üzvü Vaaqn Aleksanyan deyib.

Deputatın sözlərinə görə, hərbçilərin bəziləri ya fiziki hazırlıqdan, ya atəş hazırlığından, ya da peşəkar suallardan keçə bilməyiblər: "Elə etmək lazımdır ki, həm ordu döyüşə hazır olsun, həm də maaş artsın. Ordu elə bir vəziyyətdədir ki, çoxlu sayda hərbçi qənaətbəxş sertifikat ala bilmir".

Qeyd edək ki, müdafiə nazirinin müavini Karen Brutyanın məlumatına görə, könüllü attestasiyadan keçmək üçün 5908 hərbçi ərizə verib, 5783-ü iştirak edib. Onlardan 91-i əla, 583-ü yaxşı, 2152-si qənaətbəxş, 2957-si isə qeyri-kafi qiymət alıb.

***Ağarza Elçinoğlu***

## Daha bir ölkə Rusiyaya qarşı yeni sanksiyalar tətbiq edib

***Yeni Zelandiya Rusiya şirkətlərinə və vətəndaşlarına qarşı yeni sanksiyalar tətbiq edib.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin Xarici İşlər və Ticarət Nazirliyi məlumat yayıb.

Bildirilir ki, yeni məhdudiyyətlər Rusiya neftinin qiymətlərinə və bəzi malların vasitəçilər vasitəsilə Rusiya və Belarusa ixracına təsir edəcək, həmçinin Rusiya vətəndaşları və şirkətləri üçün maliyyə və iqtisadi məhdudiyyətləri əhatə edəcək.

Yeni Zelandiyanın xarici işlər naziri Uinston Petersin izah etdiyi kimi, məhdudiyyətlər "mövcud məhdudiyyətlərin, o cümlədən Rusiya müdafiə sənayesi üçün texnologiyanın əldə edilməsi ilə məşğul olan" 45 Rusiya vətəndaşına və 16 təşkilata təsir edəcək.

***Gülayə Mecid***

## İsrail yardım gözləyən fələstinliləri vurdu - 70 ölü

***Oktyabrın 7-dən Qəzzaya hücum edən və onu qan gölünə çevirən İsrail ordusu 30 mindən çox fələstinlini qətlə yetirib.***

"Unikal" xəbər verir ki, bölgədə daha bir qan donduran hadisə yaşanıb. Belə ki, İsrail yardım gözləyən qəzzalıları atəşə tutub. İnsident nəticəsində azı 70 nəfər həlak olub, 250 nəfər isə yaralanıb.

***Zərifə Nağıyeva***

## "Rusiya taxıl müqaviləsində maraqlı deyil" - Nazir

***Rusiya taxıl müqaviləsində maraqlı deyil.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Federasiyasının Kənd Təsərrüfatı naziri Dmitri Patruşev deyib.

Onun sözlərinə görə, ölkənin özünün taxıl ixracı imkanları var: "Biz bu taxıl müqaviləsində o qədər də maraqlı deyilik, taxılımızı ixrac etmək üçün öz imkanlarımız var, onlar heç bir şəkildə taxıl müqaviləsindən asılı olmayacaqlar. Bu, əsasən siyasi məsələdir, biz texniki icraçıyıq".

***Ağarza Elçinoğlu***

## "Makronun bu bəyanatı Rusiyanı ayıq-sayıq olmağa vadar edir" - Peskov

***Fransa prezidenti Emmanuel Makronun Ukraynaya hərbçilərin göndərilməsi ilə bağlı bəyanatı Rusiyanı ayıq-sayıq olmağa vadar edir.***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib. Diplomat qeyd edib ki, Avropalı siyasətçilərin özünü qorumaq instinkti yoxdur.

Bundan əvvəl Makron NATO qoşunlarının Ukraynaya göndərilməsinin tərəfdarı olduğunu açıqlamışdı.

***Ağarza Elçinoğlu***

# Ermənistan Milli Təhlükəsizlik Xidmətini Qarabağa göndəribmiş

***44 günlük müharibədən sonra blokada hiss etmədik.***

"Unikal" xəbər verir ki, bunu işğal zamanı Ağdərənin Lüləsaz kəndinə rəhbərlik edən Hrant Baxşiyan deyib.

O, etiraf edib ki, Suqovuşanla kəndin birləşdiyi hissədə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) qoşunları yerləşdirilib: "Rus sülhməramlıları da kəndlə "Madagiz" arasında yerləşdirilmişdi".



Baxşiyan 2023-cü il sentyabr ayının 19-da keçirilən lokal xarakterli antiterror əməliyyatından əvvəl ailələrin kənddən çıxarılmasını tapşırıb. Yəni bu barədə onlara belə əvvəlcədən məlumat verilib.

Onun sözlərinə görə, Azərbaycan tərəfi 19-u günortadan sonra MTX-nin mövqelərini atəşə tutmağa başlayıb: "O vaxta qədər ruslar heç kimə xəbərdarlıq etmədən qoşunlarını yaxınlıqdakı bazadan çıxarmışdılar. Bizim təhlükəsizlik qüvvələri də bizdən sonra özləri çıxdılar".

***Ağarza Elçinoğlu***

# Putin Qərb dövlətlərini hədələdi

***Rusiya Prezidenti Vladimir Putin Ukraynaya qoşun göndərməyi düşünən Qərb dövlətlərinə xəbərdarlıq edib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident Putin Federal Məclisə illik müraciəti zamanı danışıb.

"Onlar (Qərb) başa düşməlidirlər ki, bizim də onların ərazilərində hədəflərə zərbə vura biləcək silahlarımız var. Ruslar Qərbdən gələn "rusofobiya"nın qurbanıdır. Ruslara qarşı belə yanaşma "ağılsızlıq"dır. Suveren, güclü Rusiya olmadan sabit dünya nizamı ola bilməz", - Putin əlavə edib.

"Rusiyaya müdaxilə etmək istəyənlərin üzləşəcəyi nəticələr keçmiş dövrlərlə müqayisədə daha faciəli olacaq. Ölkəmizə yeni müdaxilə cəhdləri nüvə



silahının tətbiqi ilə genişmiqyaslı münaqişə təhlükəsi yaradır", - o, xəbərdarlıq edib.

# Şahzadə Keyt komaya düşüb?

***Britaniya kral ailəsi sağlamlıq problemləri ilə gündəmə gəlməkdə davam edir.***

Bir müddət əvvəl şahzadə Keyt əməliyyat olunmuş və Kral Çarlza da xərçəng diaqnozu qoyulmuşdu. Kralın sağlamlıq vəziyyəti ilə bağlı irəliləyişlər paylaşılmağa davam edərkən, Uels şahzadəsinin bir müddətdir gözdən uzaq olması bir çox söz-söhbətlərə



səbəb olub.

"Unikal" xəbər verir ki, məsələ ilə bağlı Saraydan açıqlama verilib. Açıqlamada Şahzadənin əməliyyat olunduğu və təxminən 2 həftə xəstəxanada qalacağı bildirilib.

42 yaşlı Şahzadənin keçirdiyi əməliyyata görə tədbirlərə qatıla və səyahət edə bilməyəcəyi paylaşılıb. Əməliyyatın təfərrüatları açıqlanmasa da, bunun planlı əməliyyat olduğu və "qarın nahiyəsi" ilə əlaqəli olduğu bildirilib.

***Zərifə Nağıyeva***

# "Buna heç kim təsir edə bilməz" - Saakaşvilinin əfvindən danışdı

***"Məhbus Mixail Saakaşvilinin əfv edilməsi ilə bağlı qərar dövlət başçısının mənəvi məsuliyyətidir və buna heç kim təsir edə bilməz".***

"Unikal" xəbər verir ki, bunu Gürcüstan prezidenti Salome Zurabaşvili deyib.

"Mən bu məsələyə münasibət bildirmirəm. Bu, özüm verəcəyim və buna görə özümə cavabdeh olacağım mənəvi bir qərardır. Bu, xarici və ya daxili təzyiqin təsir edə biləcəyi məsələ deyil", - Zurabişvili bildirib.

O, ölkədə azad və ədalətli parlament seçkilərinin keçirilməsinin eks-prezidentin əfv olunub-olunmamasından asılı olmadığını vurğulayıb. Onun sözlərinə görə, o, real səbəblərdən həbsdədir.

"Bu o demək deyil ki, biz humanitar perspektivi nəzərə almamalı və ona hörmət etməməliyik. Həbsxanada onun başına gələnləri çox diqqətlə izləyirdim. Nə etmək olar deyə soruşduqda mən razıyam ki, reputasiya baxımından onun başqa yerdə olması daha yaxşı olardı", - Gürcüstan Prezidenti qeyd edib.

Zurabişvili həmçinin bildirib ki, "başqa ölkələrin istifadə etdiyi bir çox imkanlar var". Söhbət ekstradisiyadan və ev dustaqlığından gedir. O, Ukraynanın Saakaşvilini ekstradisiya etməyə hazır olduğunu xatırladıb.

Xatırladaq ki, Mixail Saakaşvili ona qarşı bir sıra cinayət işlərinin olmasına baxmayaraq, 2021-ci ilin oktyabrında vətənə qayıdıb. Nəticədə Gürcüstanın eks-prezidenti



həbs edilib. Saakaşvili özü həbsini siyasiləşmiş adlandırıb və aclıq aksiyasına başlayıb. Sonradan eks-prezidentin səhhəti ciddi şəkildə pisləşib, 2022-ci ilin mayında müayinə olunmaq üçün həbsxanadan paytaxtdakı klinikaya köçürülüb. Vəziyyətinə baxmayaraq, o, Gürcüstan siyasətində iştirak etməyə hazır olduğunu dəfələrlə bəyan edib.

***Gülayə Mecid***

08_27 IYUl-QARA.qxd 3/1/2024 4:18 PM Page 16



# Xankəndi-Bakı marafonu start götürdü - İlk dəfə




***İlk dəfə keçirilən Xankəndi-Bakı ultra marafonuna start verilib.***

Yarışdan öncə açılış mərasimi keçirilib. Əvvəlcə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Atletika Federasiyasının prezidenti Cavid Qurbanov bildirib ki, Xankəndidə belə bir marafon təşkil etmək böyük şərəfdir.

Gənclər və İdman Nazirliyinin İdman Şöbəsinin müdiri Elnur Məmmədov Xankəndidə tarixi ana şahidlik etdiklərini vurğulayıb. Azərbaycanda ilk dəfə beynəlxalq ultra marafon təşkil olunduğunu xatırladan nazirlik rəsmisi bu münasibətlə hər kəsi təbrik edib: "Bizə bu günlərə yaşadan Ali Baş Komandan İlham Əliyevə minnətdarlığımızı bildiririk. Allah şəhidlərimizə rəhmət eləsin".

Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra marafona start verilib. Yarışın iştirakçıları 380 kilometr məsafə qət edərək finişə Bakıda çatacaqlar.

Gənclər və İdman Nazirliyinin Azərbaycan Atletika Federasiyası ilə birgə təşkil etdiyi yarış "İdman həftəsi" və "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilir. Marafonda müxtəlif ölkələrdən ümumilikdə 64 idmançı iştirak edir. Onlardan dördü meksikalı, beşi türkiyəli, biri moldovalıdır. Digərləri isə Azərbaycan təmsilçiləridir.

Ultra marafon iştirakçıları Xankəndi-Yevlax (83 kilometr), Yevlax-Ucar (84 kilometr), Ucar-Hacıqabul (88 kilometr), Hacıqabul-Qobustan (70 kilometr) və Qobustan-Bakı (55 kilometr) mərhələlərini keçməklə martın 4-də Bakıya çatacaqlar. Hər mərhələnin qalibləri ayrılıqda təltif ediləcəklər. Ultra marafonun ümumi qalibləri isə baş mükafata layiq görüləcəklər.

# Mini futbol meydançasında 12 komandanın mübarizəsi

***Masallı "Viləş" mini futbol meydançasında Lənkəran - Astara Regional Gənclər və İdman İdarəsinin və Uşaq - Gənclər İdman Şahmat Məktəbinin birgə təşkilatçılığı ilə Xocalı faciəsinin 32-ci ildönümünə həsr olunmuş məktəblilər arasında iki gün davam edən mini futbol üzrə rayon turniri başa çatdı.***



Mərasimdə əvvəlcə Xocalı faciəsi qurbanlarının və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anıldı .

2 yaş qrupu üzrə 12 komandadan 105 nəfər idmançının qatıldığı turnirin yekun nəticəsinə əsasən 9-10 yaşlı uşaqlar arasında Şərəfə kənd Q. İsmayılov adına tam orta məktəbin komandası birinci, Lürən kənd F. Şükürov adına tam orta məktəbin komandası ikinci, Ərkivan qəsəbə Z. Nəcəfov adına 2 saylı tam orta məktəbin komandası üçüncü yerə layiq görüldülər.

11-12 yaşlı uşaqlar arasında isə Masallı şəhər N.Nərimanov adına 2 saylı tam orta məktəbin komandası birinci, Ərkivan qəsəbə Z.Nəcəfov adına 2 saylı tam orta məktəbin komandası ikinci, Masallı şəhər R. Cəfərov adına 6 saylı tam orta məktəbin komandası üçüncü yeri qazandılar.

Turnirdə I, II və III yeri çıxan idmançılar Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin və Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin diplomları ilə təltif olunublar.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# "Qarabağ" "Qəbələ"yə 100-dən çox qol vurub

***"Qarabağ" "Qəbələ" ilə çempionat oyunlarında vurulan qol sayında 100-ü keçib. "Qafqazinfo" xəbər verir ki, Premyer Liqanın XXIII turundan təxirə salınmış oyunadək rəqib qapısına 98 dəfə yol tapan Ağdam klubu 4:0 hesablı qələbə qazanıb.***




Riçard Almeydanın penaltidən vurduğu ikinci top bu duellərdə komandasının 100-cü qolu olub. "Qarabağ" matçın sonunadək bu rəqəmi 102-yə çatdırıb. Bu, komandalar arasında 61-ci matçda baş

Azərbaycan çempionatlarının 32 illik tarixində 5-ci belə hadisədir. Bunadək "Qarabağ" "Neftçi", "Sumqayıt" və "Şamaxı" ilə görüşlərdə 100-ü keçib. "Neftçi" isə buna "Şamaxı" ilə qarşılaşmalarda nail olub:

1. "Qarabağ" - 120 ("Neftçi")
2. "Neftçi" - 119 ("Şamaxı")
3. "Qarabağ" - 116 ("Sumqayıt")
4. "Qarabağ" - 107 ("Şamaxı")
5. "Qarabağ" - 102 ("Qəbələ")

# Ronaldo cəzalandırıldı

***"Əl-Nəsr"in hücumçusu Kriştiano Ronaldo azarkeşlərə qarşı nalayiq jest etdiyi üçün cəzalandırılıb.***



QOL.az "L'Equipe" nəşrinə istinadən xəbər verir ki, 39 yaşlı futbolçu Səudiyyə Ərəbistanı çempionatının 21-ci turunun "Əl-Şəbab"la oyununda (3:2) göstərdiyi jestə görə 1 oyunluq diskvalifikasiya olunub.

Ronaldonun özü bu işarənin "güc və qələbə ifadə etdiyini" və Avropada "onlar buna öyrəşdiyini" söyləyib.

Bu mövsüm Ronaldo "Əl-Nəsr"in heyətində bütün turnirlərdə 29 oyun keçirib, 28 qol vurub və 11 qolun ötürməsini verib.

# Sxadadze qayıdan kimi rekord vurdu



***Kaxaber Sxadadze Azərbaycan çempionatlarının tarixinə yüksək dəstədə üç fərqli klubda çalışan ilk legioner baş məşqçi kimi düşüb.***

"Unikal" PFL-in saytına istinadən xəbər verir ki, 2008-ci ildə "Standard", 2009-15-ci illərdə "İnter"i (indiki "Şamaxı") çalışdırmış gürcüstanlı mütəxəssis "Qəbələ"də debüt edib.

Onun debütü "Qarabağ"la 23-cü turdan təxirə salınmış matça təsadüf edib. Sxadadzenin baş məşqçisi olduğu komanda 0:4 hesabı ilə uduzub.

O, 3204 gündən sonra Premyer Liqaya qayıtmaqla bu rekorda imza atıb. Sxadadzenin "İnter"dəki son matçı 2015-ci il mayın 22-də "Qarabağ"a qarşı olub - 2:1.

Qeyd edək ki, 4 legioner baş məşqçi Premyer Liqada iki fərqli kluba rəhbərlik edib. Bunlar Cüneyt Biçər ("Bakı", "Xəzər Lənkəran"), Rasim Kara ("Xəzər Lənkəran", "Bakı"), Qyoko Hacıyevski ("Bakı", "Simurq") və Kemal Alispahiçdir ("Muğan", "Rəvan").

# Rahil Məmmədovun komandası yenə uduzdu

***Polşa çempionatında 17-ci turun oyunları keçirilir.***



QOL.az xəbər verir ki, Azərbaycan millisinin müdafiəçisi Rahil Məmmədovun çıxış etdiyi LKS səfərdə "Stal Meleç"lə qarşılaşıb. Oyun meydan sahiblərinin qələbəsi ilə başa çatıb - 1:0.

Start heyətdə meydana çıxan Rahil sona qədər oynayıb. O, matçın 70-ci dəqiqəsində sarı vərəqə alıb.

Bu nəticədəsn sonra LKS 10 xalla sonuncu - 18-ci pillədə qərarlaşıb.

# "Beşiktaş" yarımfinalda

***Türkiyə kubokunun 1/4 finalında "Beşiktaş" evdə "Konyaspor"a 2:0 hesabı ilə qalib gələrək yarımfinala yüksəlib.***

İstanbul təmsilçisinin qollarını 32-ci dəqiqədə Salih Uçan və 58-ci dəqiqədə Cenk Tosun vurublar. "Beşiktaş" yarımfinalda "Ankaragücü" ilə qarşılaşacaq.

# İngiltərə kubokunda 1/4 final cütlükləri bilindi

***İngiltərə kubokunda 1/4 final cütləri müəyyənləşib.***

Bu mərhələdə aşağıdakı komandalar üz-üzə gələcək.

"Mançester Siti" - "Nyukasl"
"Mançester Yunayted" - "Liverpul"
"Volverhempton" - "Koventri Siti"
"Çelsi" - "Lester"

Bütün qarşılaşmalar martın 16-da keçiriləcək və 1 oyundan ibarət olacaq.

Xatırladaq ki, İngiltərə kubokunun final matçı mayın 25-nə təyin edilib.